# Qızılın qiyməti 2 min ABŞ dollarını ötüb



**ABŞ-da yüksək inflyasiyanın təzyiqi altında qızıl bahalaşıb.**

Nyu-Yorkun "Comex" birjasında qızılın iyun fyuçersləri 0,56% və ya 11 ABŞ dolları bahalaşaraq, 1 unsiyası 1 985,9 ABŞ dollarına satılıb. Gümüşün may fyuçerslərinin qiyməti isə 1,19% artaraq, 1 unsiyası 26,01 ABŞ dolları təşkil edib.

Londonun metallar birjasında qızılın qiyməti cari ilin martın 11-dən sonra ilk dəfə bir unsiya üçün 2 min ABŞ dollarını ötüb.

"Report" TASS-a istinadən xəbər verir ki, gün ərzində qızılın qiyməti bir unsiya üçün 2 003 ABŞ dollarına çatıb.

*Xatırladaq ki, ABŞ-da illik inflyasiya 1981-ci ildən sonra maksimum həddə - 8,5%-ə çatıb.*



## Yevlaxda motosikletlə yük maşını toqquşub

Bir nəfər hadisə yerində dünyasını dəyişib

**Yevlax rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi olub.**

Yevlax-Bərdə yolunda motosiklet yük maşını ilə toqquşub.

Nəticədə motosiklet sürücüsü, Yevlax rayon sakini, 1985-ci il təvəllüdlü Tural Qasımov ağır xəsarətlər alıb və hadisə yerində dünyasını dəyişib.


№ 67 (5589), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 aprel 2022-ci il (çərşənbə axşamı)




# Qanunlara dəyişiklik edilir

Sağlamlıq imkanları məhdud şəxslər sağlam şəxslərlə birgə təhsil alacaq

**Sağlamlıq imkanları məhdud şəxslər sağlam şəxslərlə birgə təhsil alacaq.**

Bununla bağlı "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilir.

Belə ki, qanun layihəsi təhsil müəssisəsinin tipləri və növləri konkretləşdirilməklə hər iki qanunun normaları bir-birinə uyğunlaşdırılaraq sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılmaqla onların cəmiyyətə uyğunlaşması istiqamətində sağlam şəxslərlə birgə təhsil almaqları üçün xüsusi şəraitin yaradılmasının təmin edilməsi məqsədini daşıyır.




## ABŞ ikitərəfli danışıqları alqışlayır

Endryu Şofer regiona gəlib

**"ABŞ Ermənistan Baş naziri Nikol Paşinyanın Azərbaycanla sülh danışıqlarına dair son şərhini, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında son ikitərəfli danışıqları və Azərbaycan Prezidenti İlham Əliyevin sülh danışıqlarına sadiqliyini alqışlayır".**

Bu barədə ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri üzrə Bürosunun "Twitter" hesabında bildirilib.

Qeyd olunub ki, Dövlət katibinin köməkçisi Donfrid Birləşmiş Ştatların prosesə ən yaxşı şəkildə necə dəstək verə biləcəyini müzakirə etmək üçün bu həftə Qafqazda danışıqlar üzrə baş müşaviri Endryu Şoferi regiona göndərib.

*Xatırladaq ki, Endryu Şofer Ermənistanda səfərdədir. O, artıq Ermənistanın xaric işlər naziri Ararat Mirzoyan və Baş nazir Nikol Paşinyanla görüşlər keçirib.*

## Dövlət peşə məktəblərində ödənişli oxuyanlara da təqaüd veriləcək

Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib



**Milli Məclisin Elm və təhsil komitəsinin iclasında komitə sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə birinci oxunuşda olan üç qanun layihəsi daxil edilib.**

Gündəliyin təsdiqindən sonra komitə sədri "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti barədə məlumat verib. O, qeyd edib ki, mövcud qanunvericilikdə peşə təhsili müəssisələrində yalnız dövlət hesabına təhsilalanlara təqaüdün verilməsi nəzərdə tutulub.

(səh.2)

# Şuşa dünya azərbaycanlılarını birləşdirən məkana çevrilir

Yüksək zirvədən, tribunadan verilən mesajlar regional, qlobal olacaq, ölkə sərhədlərini aşacaq




"Hamı orada "Şuşa andı"nı qəbul edəcək"

**Dünya Azərbaycanlılarının V Qurultayı Şuşada keçiriləcək. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib. Komitədən bildirilib ki, qurultayın keçirilməsi ilə bağlı hazırlıq işləri yekunlaşmaq üzrədir.**

Qeyd olunub ki, qurultayın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun düşmən işğalından azad etdiyi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilməsi nəzərdə tutulur.

(səh.3)

# Kəlbəcərdə 20 nəfər faciədən qurtuldu



Kənd daxilindəki yolun üzərində tank əleyhinə mina aşkarlanıb

**Ermənistan mülki əhaliyə, Azərbaycan xalqına qarşı mina müharibəsini davam etdirir.**

Düşmənin bir müddət əvvəl Azərbaycana təqdim etdiyi mina xəritələrinin 80 faizi feyk çıxıb.

Beləliklə, məlum olur ki, erməni hərbçilərinin basdırdığı minaların yerini gizlətməklə müharibə cinayətlərini davam etdirmək, yeni-yeni günahsız insanların ölümü məqsədini güdür.

(səh.2)



## Zelenski: "Donbas uğrunda döyüş başlayıb"

**Ukraynanın şərqindəki Donbas regionu uğrunda döyüş artıq başlanıb.**

APA-nın BBC-yə istinadən xəbərinə görə, bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski bildirib.

"Biz indi təsdiqləyə bilərik ki, Rusiya qoşunları uzun müddətdir hazırlaşdıqları Donbas uğrunda döyüşə başlayıb. Rusiya ordusunun böyük bir hissəsi indi bu hücum üçün ayrılıb", - deyə Ukrayna Prezidenti bildirib.

## Ölüm faktı qeydə alınmayıb

Son sutkada 3 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 3 yeni yoluxma faktı qeydə alınıb, 17 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 365 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 533 nəfər müalicə olunaraq sağalıb, 9706 nəfər vəfat edib, aktiv xəstə sayı 126 nəfərdir.

*Ölkədə son sutka ərzində 1954, hazırkı dövrədək isə 6 771 851 test aparılıb.*

## Ötən il Gürcüstanda terrorçuluğa görə 5 nəfər həbs edilib



**2021-ci ildə Gürcüstanda terror təşkilatlarına üzvlüklə bağlı araşdırmalara başlanılıb və nəticədə 5 vətəndaş azadlıqdan məhrum edilib.**

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) 2021-ci il üzrə hesabatında bildirilib.

Sənədə əsasən, həmin şəxslər Yaxın Şərqə yollanıb terror təşkilatı sıralarında döyüşmək niyyətində olublar.

DTX-nin vaxtında həyata keçirdiyi tədbirlər nəticəsində cinayət niyyətinin həyata keçirilməsinin qarşısı alınıb.

## Fahrettin Koca müjdəni verdi

"Koronavirusu beynimizdən çıxarmağın vaxtı gəlib"



(səh.4)

## Üzən məzənnəyə keçidə qərar verilə bilər

Öncə bank sistemində, sığorta və qiymətli kağızlar bazarında ciddi iş görülməlidir



(səh.5)

# Kəlbəcərdə 20 nəfər faciədən qurtuldu

## Kənd daxilindəki yolun üzərində tank əleyhinə mina aşkarlanıb





**Ermənistan mülki əhaliyə, Azərbaycan xalqına qarşı mina müharibəsini davam etdirir.**

**Düşmənin bir müddət əvvəl Azərbaycana təqdim etdiyi mina xəritələrinin 80 faizi feyk çıxıb.**

Beləliklə, məlum olur ki, erməni hərbçilərinin basdırdığı minaların yerini gizlətməklə müharibə cinayətlərini davam etdirmək, yeni-yeni günahsız insanların ölümü məqsədini güdür.

Bir neçə gün əvvəl - aprelin 16-da Kəlbəcər rayonunda yolda aşkarlanan mina da bunu sübut edir.

Belə ki, Kəlbəcərin Günəşli kəndinin bir qrup sakini doğma yurdlarına ziyarət zamanı sıx yaşayış evləri olan kənd daxilindəki yolun üzərində tank əleyhinə mina aşkarlanıb.

Ziyarətdə Kəlbəcər sakinlərindən, dövlət qurumlarının nümayəndələrindən və İTV-nin çəkiliş qrupundan ibarət ümumilikdə 20 nəfər iştirak edirmiş. Həmin heyətdə rayonun Günəşli kənd sakini Rasim Əmirov da iştirak edib.

"Report"a açıqlama verən R.Əmirov bildirib ki, Müdafiə Nazirliyinin minaaxtaran əsgəri həmin gün 20 nəfərin həyatını xilas edib:

"Aprelin 16-da Kəlbəcər rayonun Günəşli kəndinin bir qrup sakini ilə doğma yurdumuzu ziyarət etməyə getdik. Qardaşım baş leytenant Rəsul Əmirov 1993-cü ildə Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olub. Biz də həm kəndimizi, həm də kənd qəbiristanlığını ziyarət etdik, ermənilər tərəfindən dağıdılmış yurd-yuvamızı gəzdik. Bizimlə gedən şəxslərdən birinin atası ilə bacısı "Tunel qətliamı"nda erməni vandalları tərəfindən öldürülüb. Həmin şəxsin evinin yaxınlığında, 20 nəfərdən ibarət heyəti daşıyan avtobus yolunun üzərində tank əleyhinə mina aşkarlandı. Minanı Müdafiə Nazirliyinin əsgəri Mərdəli Aşurov tapdı. Sonra minaaxtaranlar minanı oradan çıxartdı.

Bildiyiniz kimi, bizim kəndimiz Kəlbəcər rayonunun ucqar kəndlərindən biridir. Görünür ki, ermənilər ərazidən qovulanda minanı basdıraraq çıxıblar. Əsgərimiz bizi böyük faciədən xilas etdi. Ona çox təşəkkür edirik".

*"Kəlbəcərdə əsgər Mərdəli Aşurov, onun digər əsgər yoldaşları, komandirləri minanı zərərsizləşdirdilər və ciddi bir faciənin qarşısını aldılar".*

**Bunu "Report"a açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sənan Hüseynov Kəlbəcərin Günəşli kəndində mina aşkarlanması məsələsi barədə danışarkən deyib.**

**O hadisənin təfərrüatını danışıb:**

"Aprelin 16-da bir qrup keçmiş məcburi köçkünün Kəlbəcər rayonuna səfərini təşkil etdik. Səfər zamanı qətliam baş vermiş Tuneldə olduq, ərazidə tədbir keçirdik. Sonra iki yerə bölündük. Səfər iştirakçılarının bir hissəsi Başlıbelə getdi, digər hissəsi isə mətbuat nümayəndələri ilə birgə Günəşli kəndinə yola düşdü. Biz Günəşlidə qəbiristanlıqda olduq. Orada şəhidlərin qəbirləri ziyarət olundu. Geri qayıdarkən kənd ərazisində bir nəfər xahiş etdi ki, yolumuzun üzərində onun evi var, ora düşmək istəyirdi. Təbii ki, biz ona icazə vermədik. Müdafiə Nazirliyinin minaaxtaranları ilə bir yerdə həmin əraziyə düşdük. Bu zaman əsgərimiz yolumuzun üzərində tank əleyhinə mina aşkarladı. Təhlükəsizliyimiz təmin edildi. Minanı tapan əsgərimiz Mərdəli Aşurov idi. Onun digər əsgər yoldaşları, komandirləri də orada idi. Sonra minanı zərərsizləşdirdilər və olacağı ciddi bir faciənin qarşısını aldılar".

**S. Hüseynov xatırladıb ki, 2020-ci ilin noyabrın 10-da imzalanan kapitulyasiya aktından sonra Kəlbəcər rayonu bizə təhvil verilməli idi:**

"Ermənilər əlavə vaxt istədilər. Ölkə rəhbəri də humanizm göstərərək onlara 15 gün əlavə vaxt verdi. Və həmin dövrdə ermənilər evləri yandırdılar, dağıtdılar, oradan çıxarkən ərazini minaladılar.

Məqsəd məcburi köçkünlərin geriyə qayıtmasını əngəlləməkdir. Yəni, bu əraziləri çirkləndirirlər, mina xəritələrini vermirlər. Verdikləri mina xəritələrinin 80%-i isə feykdir.

Biz də bütün keçmiş məcburi köçkünlər dünyadan, beynəlxalq təşkilatlardan kömək istəyirik ki, bu mina ilə çirklənmiş ərazilərin təmizlənilməsində bizə kömək etsinlər. Çünki bu gün minadan təmizlənmə ümumi problemdir, bahalı bir prosesdir. Bu işdə dünya bizə kömək etməlidir", - şöbə müdiri vurğulayıb.

*Qeyd edək ki, aşkarlanan tank əleyhinə mina Günəşli kəndinə 2020-ci il noyabrın 10-dan 25-dək olan müddətdə - Kəlbəcərin təhvil verilməsi üçün istənilən vaxtda evlərinə qayıdacaq dinc əhaliyə qarşı, kütləvi insan təlafatı törətmək məqsədilə basdırılıb.*

*Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə bu günədək Müdafiə Nazirliyinin mühəndis-istehkam bölmələri tərəfindən 15000 hektardan artıq ərazi minalardan təmizlənib. Ümumilikdə, 6095 ədəd piyada əleyhinə, 2172 ədəd tank əleyhinə və 9368 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.*

*ANAMA xətti ilə isə bu günədək 8612 ha ərazi təmizlənib, 14757 ədəd PHS, 10838 ədəd piyada əleyhinə mina, 5183 ədəd tank əleyhinə mina olmaqla, 30778 ədəd mina və PHS zərərsizləşdirilib.*



**Prezident İlham Əliyev "Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncamla Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılıb.

# Azərbaycanda dini qurumlara maliyyə yardımı ayrılıb

## Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# MN: "Kəlbəcərdə döyüş növbətçiliyi və hərtərəfli təminat yüksək səviyyədədir"



**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad olunmuş ərazilərdə döyüş növbətçiliyi aparan bölmələrin hərtərəfli təminatı və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlər həyata keçirilib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Şəxsi heyətin sərt iqlim şəraitində, çətin relyefli ərazilərdə nümunəvi xidmət etməsi, döyüş qabiliyyətinin və döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması məqsədilə bütün zəruri tədbirlər görülür.

Hərbi qulluqçularımız təzə və yüksək kalorili qida, eləcə də digər təminat növləri ilə tam təmin edilib.

Azad olunmuş ərazilərdə dislokasiya olan bölmələrin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı həyata keçirilən kompleks tədbirlər davam etdirilir.



# Dövlət peşə məktəblərində ödənişli oxuyanlara da təqaüd veriləcək

## Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib

**Milli Məclisin Elm və təhsil komitəsinin iclasında komitə sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə birinci oxunuşda olan üç qanun layihəsi daxil edilib.**

Gündəliyin təsdiqindən sonra komitə sədri "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti barədə məlumat verib. O, qeyd edib ki, mövcud qanunvericilikdə peşə təhsili müəssisələrində yalnız dövlət hesabına təhsilalanlara təqaüdün verilməsi nəzərdə tutulub. Təklif olunan dəyişiklikdə isə dövlət peşə təhsili müəssisələrində təhsialanlara dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq təqaüdün təyin edilməsi təklif olunub.

Bəxtiyar Əliyev bildirib ki, peşə təhsilinin təkmilləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi, əlçatanlığın genişləndirilməsi üçün geniş islahatlar həyata keçirilir. Bu dəyişiklik də Azərbaycan Respublikası Prezidentinin "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Sərəncamına uyğun hazırlanıb.

Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, komitə üzvləri Kamilə Əliyeva, Ceyhun Məmmədov, Etibar Əliyev, Aqiyə Naxçıvanlı, Eldar Quliyev, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsinin müzakirəsində çıxış ediblər, fikirlərini bildiriblər.

Deputatlar təklif olunan dəyişikliyi peşə təhsilinə marağın artırılması, bu sahədə əlçatanlığın genişlənməsi və bərabər imkanların yaradılması baxımından yüksək qiymətləndiriblər. Onlar peşə təhsili məzunlarının işlə təmini, peşə təhsili müəssisələrinin orta məktəblərlə sıx əlaqələrin qurulması kimi məsələlərlə bağlı rəylərini, təkliflərini səsləndiriblər.

Deputatlar qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Sonra komitə sədri gündəliyin 2-ci və 3-cü məsələsi olan "Ümumi təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) bir-biri ilə bağlı olduğunu diqqətə çatdırıb.

Bildirib ki, "Ümumi təhsil haqqında" Qanunun "Əsas anlayışlar" adlanan birinci maddəsinə "inteqrasiya təlimli təhsil müəssisəsi" anlayışının tərifi əlavə edilib. 4.0.29-cu maddəsində "pedaqoji işçi" termininin "müəllimlər" sözü ilə əvəz edilməsi təklif olunub.

Qanunun 12-ci maddəsinə irəli sürülən dəyişiklikdə isə ümumi təhsil müəssisələrinin yeni təsnifatı təklif olunub.

Sonra komitə sədri məlumat verib ki, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində ümumi təhsil müəssisələrinin növlərinin yeni redaksiyasına uyğun olaraq "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanununun 7.0-cı maddəsində və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 14.5.2-ci maddəsində də dəyişikliklər edilməsi təklif olunub.

Azərbaycanda sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqlarının təmini ilə bağlı görülən tədbirlərdən, qəbul edilən qanun, sərəncam və dövlət proqramlarından bəhs edən Bəxtiyar Əliyev sağlamlıq imkanları məhdud uşaqların mövcud təhsil təminatından istifadə imkanları barədə bəzi göstəricilərə nəzər salıb. O, ölkəmizdə inklüziv təhsilin tətbiqi ilə bağlı təşəbbüsləri, xüsusən də Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələri, sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində gördüyü məqsədyönlü işlərin əhəmiyyətindən danışıb.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyin əhəmiyyətini vurğulayan komitə sədri qanunvericiliyə təklif edilən bu dəyişikliklərin də onların təhsili üçün maneəsiz mühit yaratmağa xidmət etdiyini bildirib.

Qanun layihələrinin müzakirələrində deputatlar Müşfiq Məmmədli, Aqiyə Naxçıvanlı, Etibar Əliyev və Kamilə Əliyeva inklüziv təhsildə maddi-texniki, kadr hazırlığının vəziyyəti, yeni yanaşmaların tətbiqi, həmçinin təhsilin bir sıra aktual məsələləri ilə bağlı fikirlərini açıqlayıblar. "Ümumi təhsil haqqında" Qanuna təklif olunan 1.0.44 maddəsində "inteqrasiya təlimli təhsil müəssisəsi" anlayışının tərifi ilə əlaqədar rəylərini səsləndiriblər. Deputatlar təklif edilən dəyişikliklərin sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqlarının təmin edilməsini, təhsilə əlçatanlığını genişləndirəcəyini bildiriblər.

Müzakirələrə yekun vuran Bəxtiyar Əliyev deputatların qaldırdığı məsələlərə münasibət bildirəndən sonra komitə üzvləri hər iki qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

*Bununla da Milli Məclisin Elm və təhsil komitəsinin 2022-ci ilin yaz sessiyasında növbəti iclası başa çatıb.*

**İsmayıl**

# "Neqativ epizodlar arxada qalıb"

## İlqar Vəlizadə: "Əfsuslar ki, Qırğızıstanla iqtisadi əlaqələrimiz qənaətbəxş deyil"

**Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycana rəsmi səfər edəcək. Bunu Qırğızıstan Respublikası Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Jeenbek Kulubayev deyib.**



"Türk Birliyinin təməli məhz ikitərəfli, qarşılıqlı münasibətlərin inkişafı ilə möhkəmlənir"

Onun sözlərinə görə, səfər 19-20 aprel tarixlərində baş tutacaq. Qırğızıstan Prezident Administrasiyasının rəsmisi bildirib ki, Azərbaycan və Qırğızıstan dövlət başçıları ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələlərini, həmçinin gələcək inkişaf və səmərəli əməkdaşlığın qurulması perspektivlərini müzakirə edəcəklər. Bundan başqa, Azərbaycanla Qırğızıstan arasında Strateji Əməkdaşlıq barədə Bəyannamə, həmçinin, Dövlətlərarası Şuranın yaradılması haqda Memorandumun imzalanması gözlənilir.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə deyib ki, Qırğızıstan prezidentinin Azərbaycana səfəri çoxdan planlaşdırılsa da, detalların müəyyən olunması bir qədər zaman aldı. Analitik vurğulayıb ki, ötən ilin dekabrında Qırğızıstanın ölkəmizdəki səfiri məbuat konfransda səfər barədə məlumat vermişdi**: "Qırğız rəhbərinin Azərbaycana səfəri situativ deyil, əvvəlcədən düşünülmüş fundamental xarakter daşıyır. Bu səfərə türk respublikalarının əməkdaşlığı fonunda baxmaq lazımdır. Türk dünyasının zirvə görüşlərində liderlərin ikitərəfli təmasları olur, əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılır. İkitərəfli münasibətlər inkişaf etdirilmədən, əlaqələr intensiv olmadan türk dövlətlərinin birliyi formalaşa bilməz. Türk Birliyinin təməli məhz ikitərəfli, qarşılıqlı münasibətlərin inkişafı ilə möhkəmlənir. O baxımdan belə səfərlərin önəmi çox böyükdür".

**İ.Vəlizadəyə görə, Qırğızıstan-Azərbaycan münasibətləri ümumən normal olsa da, bəzi məqamlarda müəyyən problemlər də yaşanıb:** "Sabiq prezident Atambayev dövründə iki ölkə arasında müəyyən soyuqluq müşahidə olunurdu. Rəsmi Bişkek Azərbaycana birmənalı dəstək verməkdə tərəddüd etdiyi üçün ölkə ictimaiyyətinin narazılığına səbəb olurdu. Neqativ epizodlar arxada qalıb və hazırda siyasi dialoq yüksək səviyyədədir. Qırğızıstanın indiki hökuməti Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. 44 günlük müharibədə qazandığımız qələbəni alqışlayıb. Ancaq əfsuslar ki, Qırğızıstanla iqtisadi əlaqələrimiz qənaətbəxş deyil. Çox güman, qırğız prezidentinin səfəri çərçivəsində iqtisadi məsələlər ətraflı müzakirə olunacaq".

**İsmayıl Qocayev**

# Müharibə Ukrayna iqtisadiyyatına 600 milyard dollar ziyan vurub



**Aprelin 18-nə olan məlumata görə Ukraynada müharibə nəticəsində infrastruktura dəyən təsdiqlənmiş ziyan 2,5 trilyon qriven, və ya 85 milyard dollardır.**

APA-nın UNİAN-a istinadla xəbərinə görə, bu statistikanı Kiyev İqtisad Məktəbi bir neçə dövlət qurumu ilə birgə tərtib edib.

Kiyev İqtisad Məktəbinin hesablamasına görə Ukraynanın müharibə nəticəsində birbaşa və dolayı itkiləri 600 milyard dollara yaxındır. Ziyan hesablanarkən ÜDM-in və sərmayələrin azalması, əlavə müdafiə xərcləri və digər ayrılmalar da nəzərə alınıb. Təkcə infrastruktura dəyən təsdiqlənmiş ziyan 2,5 trilyon qriven, və ya 85 milyard dollardır.

Rusiya ilə müharibə nəticəsində 23 000 km yol və 32 min kvadrat metr mənzil fondu sıradan çıxıb.

Məktəbin tərtib etdiyi sənəddə göstərilir ki, müharibə nəticəsində 408 bağça, 623 təhsil müəssisəsi, 206 xəstəxana və 154 zavod dağılıb. Bundan başqa, 277 körpü, 11 aeroport, 2 liman sıradan çıxıb, 91 dini və 109 mədəni obyektə ziyan dəyib.

# Media silsilə seminarlar keçirəcək

ADA ilə əməkdaşlıq gözəl nəticələr doğurur



**Medianın İnkişafı Agentliyi ilə ADA Universitetinin birgə imzaladığı əməkdaşlıq memorandumu çərçivəsində ”Media və kommunikasiya siyasəti medianın gözü ilə” mövzusunda seminarlara başlanılıb.**

”Şərq” xəbər verir ki, MEDİA Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən seminarlar dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün nəzərdə tutulub.

Seminarın açılış mərasimində çıxış edən ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva ilk seminarların təşkil edilməsindən və onların əhəmiyyətindən danışıb.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə Medianın İnkişafı Agentliyi ilə əməkdaşlıq təcrübəsinin uğurunu məmnunluqla qeyd edib. Vurğulayıb ki, media və kommunikasiya kimi vacib sahədə islahatların həyata keçirilməsində universitetin təlim və tədqiqat potensialından istifadə edilməsi bu mənada ən qabaqcıl elmi nəzəriyyələrin və təcrübələrin tətbiqi və ADA-nın beynəlxalq əməkdaşlıq şəbəkəsindən istifadəyə imkanlar açır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, dövlət orqanları ilə media subyektləri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə şərait yaratmaq, qarşılıqlı etimadın artırılması ilə əlaqədar tədbirlər həyata keçirmək agentliyin əsas vəzifələrindəndir. O, belə silsilə seminarların keçirilməsinin vacibliyini vurğulayıb.

Prezident Administrasiyasının Kommunikasiya siyasəti Sektorunun müdiri Cavid Musayev bildirib ki, Medianın İnkişafı Agentliyinin təsis olunduğu gündən etibarən media sahəsinin inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirilir. Qeyd edib ki, bu fəaliyyətdə ADA Universiteti ilə sıx əməkdaşlıq gözəl təşəbbüsdür.

İki həftə davam edəcək silsilə seminarların məqsədi peşəkar əlaqələrin qurulması, kommunikasiya strategiyalarının səmərəli şəkildə işlənilməsi, gündəmin formalaşmasına təsiri və gündəmə uyğun proaktiv və reaktiv fəaliyyətin planlaması, qurumdaxili kommunikasiya və komanda ruhunun artması, ənənəvi və sosial media ilə işləyərək daha keyfiyyətli məzmunun yaradılmasına nail olmaqdır.

Seminar yerli və xarici mütəxəssislərin çıxışları, interaktiv müzakirə sessiyaları, qrup tapşırıqları hissələrindən ibarət olacaq.

*Qeyd edək ki, MEDİA Agentliyi bununla da media nümayəndələri, jurnalistlər üçün silsilə seminarlara başlayır.*

# Lobbiçilik fəaliyyətini gücləndirməliyik

Elxan Mirhəşimli: “Diasporanın inkişafı Azərbaycanın milli maraqlarını qorumaq deməkdir”



**Dünya azərbaycanlılarının təşkilatlanması və diaspor quruculuğunda ümummilli lider Heydərə Əliyevin rolu əvəzolunmazdır.**

Dünya Azərbaycanlılarının ilk Qurultayı 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilib. Qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirilmiş və Heydər Əliyev Şuranın sədri seçilib. Bu sahədə qəbul olunmuş qərarlar və qarşıya qoyulan vəzifələr öz bəhrəsini verib. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin başçılığı ilə 2006-cı il martin 16-da II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də IV qurultaylar keçirilib.

**Azərbaycanın dövlət və milli maraqlarını müdafiəsində diasporun rolu haqqında ”Şərq”ə danışan Hollandiya Azərbaycan Evinin rəhbəri Elxan Mirhəşimli bildirib ki, Azərbaycan diasporasının inkişafı Azərbaycanın milli maraqlarını qorumaq deməkdir:** ”Bu, Azərbaycan üçün çox önəmlidir. Biz Avropa ölkələrində Azərbaycan təşkilatları olaraq, milli, mədəni irsimizi qoruyaraq və dövlətimizin milli maraqlarını dəstəkləyərək, anti-Azərbaycan informasiya təbliğatının qarşısını alırıq. Bizim dəstəyimiz 44 günlük İkinci Qarabağ müharibəsində də Avropada informasiya təbliğatı aparılması ilə davam etdi”.

*E.Mirhəşimli vurğulayıb ki, lobbiçilik fəaliyyətimizi gücləndirməliyik:* ”Diaspora Komitəsinin dəstəyi ilə təşkilatlanmalar daha da fəal kordinasiya edilir. Azərbaycanın tanınması üçün də fəaliyyətimizi davam etdiririk. Qeyri-neft sektorunun turizmin inkişafına gələcəkdə də öz töhfələrini verəcəyinin şahidi olacağıq. Bizlər, Avropada diaspora təşkilatlarının qurucularıyıq. Gələcəkdə ölkəmizə daha önəmli töhfələr vermək üçün lobbiçilik fəaliyyətimizi də gücləndirməliyik”.

**Çimnaz**



# "Pence Kilit" terrorçuları klidə saldı

Turan Rzayev: ”Rəsmi Ankaranın diqqətinin başqa regionlara yayındığını düşünən güclər PKK-nı Türkiyə əleyhinə yenidən aktivləşdirmək niyyətinə düşmüşdülər”

**Türkiyə İraqın şimalındakı terror yuvalarını məhv etmək üçün əməliyyata başlayıb. Əvvəlcə Pilotsuz Uçan Aparatlar (PUA) və helikopterlər havadan zərbələr endirib. Daha sonra komandoların rəhbərliyi ilə quru əməliyyatına başlanılıb.**

Türkiyənin Müdafiə naziri Hulusi Akar deyib ki, ”Pence Kilit” adlı əməliyyatda Metina, Zap və Avaşin-Basyan bölgələrində əvvəlcədən müəyyən edilmiş hədəflər vurulub. Akar planlaşdırılan hədəflərin hamısının ələ keçirildiyini və çoxlu sayda terrorçunun zərərsizləşdirildiyini qeyd edib: ”Qəhrəman Türk Silahlı Qüvvələri İraqın şimalından xalqımıza qarşı terror hücumlarının qarşısının alınması məqsədi ilə ”Pence-Kilit” əməliyyatına başlayıb. Bu əməliyyatın məqsədi sərhəd təhlükəsizliyimizdir. Pilotlarımız terror təşkilatına aid sığınacaqlar, bunkerlər, mağaralar, tunellər, sursat anbarları və sözdə qərargahlardan ibarət hədəfləri uğurla vurub. Əməliyyatımız planlaşdırıldığı kimi uğurla davam edir. Birinci mərhələdə qarşıya qoyulan hədəflərə nail olunub”. Nazir onu da vurğulayıb ki, mehmetçik xalqın məhəbbətindən, inamından, duasından ruhlanaraq, komandirlərinin əmri ilə öz işini böyük qəhrəmanlıq və fədakarlıqla yerinə yetirir: ”40 ildir ölkəmizi bürüyən terror bəlasından millətimizi xilas etmək əzmindəyik. Son terrorçu zərərsizləşdirilənə qədər mübarizəmiz davam edəcək. Terror təşkilatının dağılma prosesində olduğunu görürük. Bütün fəaliyyətlərimiz dost və qardaş İraqın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə həyata keçirilir. Bir daha demək istəyirəm ki, bizim yeganə hədəfimiz terrorçulardır. Mülki əhalinin, ətraf mühitin, mədəni və dini strukturların zədələnməməsi üçün maksimum həssaslıq göstərilir”.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, ”Pence-Kilit” Türkiyənin Şimali İraqda ilk əməliyyatı deyil. Analitik qeyd edib ki, Türkiyə PKK terrorçuları ilə mübarizə fonunda 1984-cü ildən bu günə qədər bölgədə 10-dan artıq hərbi əməliyyat keçirib:** ”Türkiyənin Şimali İraqda başlatdığı əməliyyat beynəlxalq hüquqa tam uyğundur. Qardaş ölkə BMT nizamnaməsinin 51-ci maddəsini əsas tutaraq Şimali İraqda hərbi əməliyyatlara başlayıb. Həmin maddədə açıq göstərilir ki, hər bir dövlət özünün ərazi bütövlüyünü müdafiə etmək üçün istənilən an hərbi yoldan istifadə edə bilər. 11 sentyabr hadisələrindən sonra ”Əl-Qaidə” təşkilatını Amerikaya hücumda təqsirləndirən rəsmi Vaşinqton da məhz 51-ci maddəni əsas götürərək İraqa girmişdi. Türkiyə indiki məqamda hərbi əməliyyatlara başlamağa məcbur idi. 44 günlük müharibə və sonrakı proseslər, hazırda davam edən Rusiya-Ukrayna müharibəsi Türkiyənin diqqətinin fərqli tərəflərə yönəldiyi eyforiyasını yaratmışdı. Rəsmi Ankaranın diqqətinin başqa regionlara yayındığını düşünən güclər PKK-nı Türkiyə əleyhinə yenidən aktivləşdirmək niyyətinə düşmüşdülər. Terrorçuların əsas bazası Şimali İraq olub. Türkiyə PKK-ya ağır zərbə vursa da, görünür, terror təşkilatı yenidən özünə gəlməyə çalışırmış. Rəsmi Ankara bu hərbi əməliyyatla terrorun nə Türkiyədə, nə də potensial təhlükə yaradacaq qonşu ölkələrdə yenidən təşkilatlanmasına icazə verməyəcəyi mesajını vermiş oldu. Bu həm də həmin terror təşkilatlarını maliyyələşdirən qüvvələrə ciddi mesajdır”.

**İsmayıl Qocayev**

# Donbass da Rusiyanın nəzarətinə keçəcək

Araz Əlizadə: “Zelenskinin hakimiyyətdə qalması mümkün olmayacaq”



**Ukrayna Prezidenti Volodimir Zelenski xalqa müraciətində bildirib ki, dünya işğalçıların Ukraynanın cənubundakı Xerson və Zaporojye bölgələrindəki fəaliyyətlərinə reaksiya verməlidir. Onun sözlərinə görə, işğalçılar Donbassı yer üzündən silmək istəyirlər: ”Onlar Mariupolu məhv elədikləri kimi, Donbassı da məhv etmək niyyətindədirlər”.**

**Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə bu barədə ”Şərq”ə danışarkən bildirib ki, hazırda rus ordusunun Donbassı məhv etmək fikri yoxdur:**

”İndi rus ordusu tərəfindən Donbassın ”azad olunması” prosesi həyata keçirilir. Ukrayna quldurlarının, millətçilərinin bir qüvvəsi qalıb, ”Azovstal” zavodunda gizləniblər. Onların sayı təxminən iki mindən dörd minə qədərdir və aralarında xarici muzdlular da var. Ukraynadan Müxalifət Platformu Partiyası Siyasi Şurasının sədri Viktor Medvedçuka tapşırıblar ki, həmin muzdluları onunla dəyişməyi təklif etsin. Rusiya əlbəttə ki, buna razı olmayacaq. Çünki Medvedçuk Ukrayna vətəndaşıdır”.

*A.Əlizadə düşünür ki, ”Azovstal”dakı qüvvələr məğlub olandan sonra ruslar Donbass və digər rayonları da ”azad edəcəklər”:*

”Sonra Rusiya tərəfindən Ukrayananın azad olunması başlanacaq. Putin deyib ki, Ukrayna silahsızlaşdırılmalı və nasistlərdən təmizlənməlidir. Ona görə Zelenskinin hakimiyyətdə qalması mümkün olmayacaq”.

**Günəş Mərd**

## Putin: "Rusiya Qərbin görünməmiş sanksiyalarına tab gətirib"

**”Rusiya Qərbin görünməmiş sanksiyalarına tab gətirib”.**

APA TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin bildirib.

Putinin fikrincə, Qərb ölkələrnin sanksiya planları məqsədinə çatmayıb.

”Qərbin sanksiyalarla bank sistemində böhran və ərzaq çatışmazlığı yaratmaq planı baş tutmayıb”, - Putin vurğulayıb.

## Mirzoyan amerikalı həmsədrlə görüşdü

Sülh müqaviləsinin bağlanması üzrə danışıqlar müzakirə edilib

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Endryu Şofferlə görüşüb. Bu barədə Ermənistan XİN məlumat yayıb.**

Məlumatda bildirilib ki, görüşdə Yerevan və Bakı arasında hərtərəfli sülh müqaviləsinin bağlanması üzrə danışıqların başlanması müzakirə edilib.

Ermənistan XİN rəhbəri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik rolunun vacibliyini vurğulayıb.

Tərəflər sərhəddə delimitasiya və təhlükəsizlik üzrə komissiyanın yaradılması haqqında sazişin həyata keçirilməsinin zəruriliyini qeyd ediblər.

# Fahrettin Koca müjdəni verdi

“Koronavirusu beynimizdən çıxarmağın vaxtı gəlib”




**İki ildir dünyanı zəbt edən koronavirus pandemiyası hələ gündəmimizdə olsa da, onu ağlımızdan çıxarmağın vaxtı çatıb. Bundan sonra fərdi qoruyucu tədbirlər və peyvəndlə gündəlik həyatımıza davam etmək istəyirik.**

Azərtac xəbər verir ki, bu fikirləri Türkiyənin səhiyyə naziri Fahrettin Koca Bursada pandemiya ilə bağlı etdiyi son açıqlamasında bildirib.

Bursanın ölkənin ən sürətlə inkişaf edən vilayətlərindən biri olduğunu vurğulayan nazir bu şəhərin həm də Türkiyənin Cənubi Mərmərə Bölgəsinin səhiyyə xidmətlərinin çatdırılması baxımından mərkəzi mövqe tutduğunu deyib.

Artıq peyvənd və dərmanla insanların COVID-19-a qarşı daha təhlükəsiz şəraitdə olduğunu vurğulayan nazir bildirib ki, aprelin 17-ə olan məlumata əsasən, ölkə üzrə yoluxma halları 3200-ə düşüb. Bu, bir il yarım ərzində ən aşağı göstəricidir.

*Qeyd edilib ki, ölkə xəstəxanalarında, eləcə də reanimasiya şöbələrində koronavirus xəstələrinin sayı günü-gündən azalır və COVID-19 xidmət mərkəzləri tədricən bağlanır. Artıq ölkədə COVID-19-dan ölənlər arasında xroniki xəstəlikləri olmayanlar yoxdur. Türkiyənin 20-dən çox vilayətində reanimasiya bölmələrində COVID-19 xəstəsi yoxdur.*

# Qurultayın Şuşada keçirilməsi çox möhtəşəmdir

Aydın Mirzəzadə: “Dünya ictimaiyyəti bilməlidir ki, harada azərbaycanlı varsa, orada inkişaf, tərəqqi, mədəniyyət var”





**”Dünya Azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi ilə bağlı qərar çox möhtəşəmdir”. Bunu ”Şərq”ə açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, dünyanın müxtəlif bölgələrində yaşayan azərbaycanlılar növbəti dəfə tarixi torpaqlarına bağlı olduqlarını, adət-ənənələrini, mədəniyyətlərini, milli irsi qoruyub saxlamaqda maraqlı olduqlarını göstərirlər:**

”Bu qərar soydaşlarımızın Azərbaycan dövlətinə bağlılığının da gözəl bir nümunəsidir. Qurultayın məhz Şuşada keçirilməsi Azərbaycanın öz torpaqlarına sahib çıxmasını və bunun dünya əhəmiyyətli bir hadisə olduğunu ortaya qoyur. Şuşa azərbaycançılıq simvoluna çevrilib. Orada vaxtaşırı dövlət tədbirlərinin keçirilməsi Şuşanın mədəniyyət paytaxtı elan olunmasının əhəmiyyətini daha yaxşı ortaya qoyur. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Şuşaya səfər etməklə erməni vandalizminin şahidi olacaqlar. Digər yandan isə orada gedən quruculuq-bərpa işlərini görəcəklər. Təbii ki, gördüklərini, əldə etdikləri məlumatları dünyaya yayacaqlar. Azərbaycan xalqının öz dövlətçiliyini necə çətinlik və əzmkarlıqla qurduqlarını, qoruduqlarını biləcəklər. Bununla yanaşı, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın uğurları, nailiyyətləri ilə də qürurlanacağıq. Dünya ictimaiyyəti bilməlidir ki, harada azərbaycanlı varsa, orada inkişaf, tərəqqi, mədəniyyət var. Şuşada qurultayın keçirilməsi işğaldan azad olunmuş zonalara xaricdən investisiya qoyulmasına, turist axınlarının artmasına da ciddi töhfə verəcək. Bu da hər birimiz üçün sevindiricidir”.

**İsmayıl Qocayev**

# Xankəndiyə az qaldı

## Qarabağdakı separatçıların sonu yaxınlaşır



**"Növbəti ildə Azərbaycan Xankəndi üzərində yuridiskiyasını bərpa edə bilər". Bu barədə "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Siyasi şərhçi bildirib ki, Avropa İttifaqının vasitəçiliyi ilə Brüsseldə keçirilən Azərbaycan və Ermənistan arasında danışıqlar müsbət nəticə verir:**

"Bu, Azərbaycanın diplomatik və siyasi uğurudur. Görüşün nəticəsi olaraq Ermənistan Baş naziri Nikol Paşinyanın parlamentdə 30 ildir ki, erməni cəmiyyəti və siyasi elitası üçün qəbul ediməyən ciddi mesajlar verməsi göstərir ki, İrəvan üçün əsas çıxış yolu Azərbaycanla normal əlaqələr qurmaq və Qarabağ iddialarından əl çəkməkdir. Artıq Ermənistan Azərbaycanla Qarabağ məsələsini ərazi bütövlüyü çərçivəsində müzakirə edəcək. Demək olar ki, rəsmi İrəvan "status" məsələsindən geri çəkildi. "Artsax respublikası"nın Ermənistan üçün bitdiyi vurğulandı. Ermənistan Beynəlxalq müstəvidə bu məsələni müzakirə etməyəcək. Hazırda Qarabağdakı bir qrup separatçılar Moskvaya üz tutub. Rusiyanın bir qrup separatçılara görə, Azərbaycan və Türkiyə ilə münasibətlərini gərginləşdirməsi Kreml üçün ağılsız olar və proseslər əleyhinə işləyə bilər. Rusiyada reallıqları qəbul etmək məcburiyyətindədir. Moskva Minsk qrupundakı nümayəndəsini Ermənistan və Azərbaycan arasında əlaqələr üzrə təyin etsə də proseslər Brüssellə davam edəcək. Moskvanın fəaliyyəti pozuculuq xarakterli olduğu üçün Bakı və İrəvan Moskvadan məsafəli davranacaq".

**Analitikin fikrincə, Paşinyanın Rusiya səfəri öncəsi parlamentdə çıxışını Moskvaya mesaj kimi xarakterizə etmək olar:** "Məhz parlamentdə Rusiyanın Qarabağla bağlı təklif etdiyi siyasətini Paşinyan qəbul etməyəcəyi anonsunu verdi. Bundan sonra, Rusiya və Ermənistan arasında münasibətlər gərgin müstəviyə keçir. Təbii ki, Moskvanın təzyiqləri fiaskoya uğrayır. Azərbaycanla Ermənistanın sülh bağlaması bu ölkəni Rusiyanın forpostu olmaqdan xilas edəcək. Bunu dolayı yolla Paşinyan erməni cəmiyyətinə ötürdü. Qarabağdakı separatçıların sonu yaxınlaşır. Onların Rusiyaya "birləşməsi" kimi çağırışları ciddi əhəmiyyət kəsb etmir. Azərbaycan Rusiyanın da Qarabağ planını pozur. Ermənistanla sülh müqaviləsi bağladıqdan sonra Xankəndidə Azərbaycanın suverenliyi bərpa ediləcək. Araik Arutyunyan və onun ətrafında olan separatçıların yaxın müddətdə Qarabağı tərk etməsi istisna deyil. Prezident İlham Əliyevin bu istiqamətdə siyasəti öz müsbət məntiqi ilə davam edir. Regionda yeni geosiyasi reallıqlar Azərbaycanın maraqlarına uyğun olaraq həyata keçirilir".

**İsmayıl Qocayev**

**Xəbər verdiyimiz kimi, Prezident İlhamƏliyevin 13 aprel 2022-ci il tarixli sərəncamına əsasən Taleh Kazımov Azərbaycan Mərkəzi Bankının (AMB) sədri təyin edilib.**




Məlum təyinatdan sonra manatın taleyi ilə bağlı məsələ gündəmə

# Üzən məzənnəyə keçidə qərar verilə bilər

## Öncə bank sistemində, sığorta və qiymətli kağızlar bazarında ciddi iş görülməlidir

gəlib. Bəzi ekspertlər yeni sədrin Azərbaycan milli valyutasının üzən məzənnəyə keçməsinə dair ciddi addımlar atacağını proqnozlaşdırırlar. Bəziləri isə hələki bunun mümkün olmadığını iddia edirlər.

*Maraqlıdır, indiki halda manatın üzən məzənnəyə keçməsi mükündürmü və sözügedən proses reallaşarsa, bu, ölkə iqtisadiyyatında necə təsir göstərər?*

**Suallarımızı cavablandıran bank məsələləri üzrə ekspert, iqtisadçı Əkram Həsənov "Şərq"ə bildirib ki, Mərkəzi Bank manatın "tam üzən məzənnə"yə keçməsinə qərar verə bilər:**

"Lakin bu dəyişiklik yaxın bir-iki il ərzində gerçəkləşməyəcək. Çünki tam üzən məzənnəyə iqtisadiyyatda sabitlik olduqda keçmək mümkündür.

Hazırda nəyin ki, Azərbaycanda hətta dünya iqtisadiyyatında sabitlik yoxdur. Davamlı qiymət artımı yaşanır, neftin qiyməti yüksək olsa da, tam sabit deyil.

Eyni zamanda yeni sədrin ilk işi manatın tam üzən məzənnəyə keçib-keçməməsi ilə bağlı qərar vermək olmamalıdır.

Öncə yeni sədr bankın sistemində, sığorta və qiymətli kağızlar bazarında ciddi işlər görməlidir. Həmçinin neftin qiymətinin yüksək olması manatın məzənnəsinin inzibati yollarla qorunub saxlanılmasına imkan verir. Ona görə də hələlik məzənnə ilə ilə bağlı dəyişikliyə ehtiyac yoxdur.

Ümumiyyətlə, bu il və gələn il üçün manatın tam üzən məzənnəyə keçəcəyini gözləmirəm".

**Kənan Eynuroğlu**



# Həbs dalğası yenə başlayır

## "Biz ayrı-ayrı yüksək və ya aşağı vəzifəli məmurların həbsini görürük"

**Ölkəmizdə əhalinin sosial rifahına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərə yol verən vəzifəli şəxslərə qarşı mübarizə istiqamətində kompleks və ardıcıl tədbirlər davam etdirilir. Bu dəfə Göyçay Rayon İcra Hakimiyyətinin şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rəşad Şükürov saxlanılıb.**

Yayılan məlumatlarda icra hakimiyyətində yol verilmiş bəzi qanun pozuntularında R.Şükürovun əli olduğu qeyd olunur. Şükürovun tutduğu vəzifə rayonda inzibati ərazi dairələri üzrə nümayəndəliklərdən ən böyüyü və daha mühümüdür. Bu vəzifənin yaratdığı imkanlara uyğun olaraq şəhər rəhbəri rayon mərkəzində yerləşən bələdiyyələrlə, Göyçay şəhərində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, sahibkarlar və digər təşkilatlarla "qarşılıqlı fəaliyyəti" gücləndirib. Göyçayda işləyən, bura sərmayə qoyan kiçik və orta sahibkarlar, kənd təsərrüfatı məhsullarının istehsalçıları və onların satışını həyata keçirən şəxslər, həmçinin şəhər sakinləri Şükürov barədə dəfələrlə şikayətlərini dilə gətiriblər. Bu barədə mediada da kifayət qədər faktlar işıqlandırılıb.

**"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev isə "Şərq"ə açıqlamasında deyib ki, biz ayrı-ayrı yüksək və ya aşağı vəzifəli məmurların həbsini görürük. Lakin dünya təcrübəsi də göstərir ki, korrupsiyaya qarşı mübarizə sistemli və institutlaşmış formada aparıldıqda yüksək nəticələr əldə etmək mümkün olur:** "Həbslər, vəzifədən kənarlaşdırmalar bir daha onu göstərdi ki, ölkədə siyasi iradə var. Korrupsiyaya qarşı mübarizəni effektiv etmək üçün həm preventiv üsullardan istifadə etmək, önləyici tədbirlər, sistem dəyişiklikləri həyata keçirilməlidir, həm də korrupsionerlərin həbsi vacibdir. Amma sadəcə, inzibati tədbirlərlə kifayətlənmək olmaz. Ölkədə anti korrupsiya mədəniyyətini təkmilləşdirmək lazımdır. Nə qədər ki, insanlarımız korrupsiyanın oğurluq olduğunu dərk etməyiblər, biz bu kimi faktlarla çox qarşılaşacağıq. Yəni biz bu cür həbslərə ayrı-ayrı fərdlər yox, hadisələr və əməllər baxımından yanaşmalıyıq".

Fond prezidentinin sözlərinə görə, bir çox məmurlar yerli icra hakimiyyətləri haqqında əsasnamədə müəyyənləşdirilən hüquq və vəzifələrinin öhdəsindən gələ bilmirlər, məsuliyyətlərini itiriblər. İnandırım sizi ki, həbs olunan şəxslər ölkəmizdə vəzifə səlahiyyətlərini aşan və rüşvət alan, insanların haqqını yeyən insanların yüzdən biridir.

***"Dünya təcrübəsi də göstərir ki, korrupsiyaya qarşı mübarizə sistemli və institutlaşmış formada aparıldıqda yüksək nəticələr əldə etmək mümkün olur"***

**Son illər ölkəmizdə korrupsiyaya qarşı mübarizənin geniş vüsət aldığını vurğulayan Ə.Nuriyev bu məsələnin hökumətin əsas prioritetlərindən biri olduğunu deyib:** "Korrupsiya cinayətində təkcə icra qurumları yox, dövlətin nəzarətedici qurumları da məsuliyyət daşımalıdır. İcra nümayəndəsi korrupsiyaya görə həbs olunursa, deməli, nəzarət mexanizmi yaxşı həyata keçirilə bilmir. Ona görə ictimai şuraların yaradılması, ictimai iştirakçılığın bərpa edilməsi, qərar qəbul etmə prosesində vətəndaşların iştirakı çox vacib məsələdir. Bu həm qərarların keyfiyyətinin artmasına, həm də effektiv icra edilməsinə gətirib çıxara bilər. Bu gün bizim bir çox məmurlar hesab edir ki, qərarları yalnız özləri verməlidirlər, özləri nəticə çıxarıb həll etməlidirlər. Kabinetdə qəbul edilən qərarların ömrü kabinetdən çıxana qədərdir, ondan sonra bitir. Sovet dövründə ölkədə bir rüşvət-korrupsiya vərdişi formalaşmışdı. İndi ən vacib məsələ anti-korrupsiya vərdişlərinin yaradılmasıdır. Bu proseslərin gücləndirilməsinə, ictimaiyyətdə anti-korrupsiya dünyagörüşünün yaradılmasına ehtiyac var".

**Şəymən**

# İnsanların əlində minlərlə özəlləşdirmə çeki qalıb

### **Tahir Kərimli:** "Qüsurları yenidən təkrar etməməliyik"

### **Novella Cəfəroğlu:** "Vətəndaşların pozulan hüquqlarını bərpa etmək lazımdır"

**"İnvestisiya haqqında" qanun layihəsinin hazırlanması, özəlləşdirmə ilə bağlı məsələlərin müzakirələri qiymətli kağızların, vauçerlərin yenidən dövriyyəyə buraxılmasını da aktuallaşdırıb.**

Bəzi müəssisələrin özəlləşdirilməyə çıxarılacağı ilə bağlı rəsmi açıqlamalara istinad edən vətəndaş əllərində qalmış özəlləşdirmə çeklərinin yenidən tədavülə buraxılmasını, yeni şərtlərlə qanunverici bazanın yaradılmasını tələb edirlər. Qeyd edək ki, 90-cı illərdə vətəndaşlara paylanmış özəlləşdirmə çeklərinin tədavül müddəti 2011-ci ildə dayandırılıb. Reallıq isə budur ki, bu gün əlində çeki qalan kifayət qədər insan var. Ziyalıların yekdil fikri bundan ibarətdir ki, özəlləşdirmə çeklərinin tədavül müddəti yenidən artırılmalı və zərər görmüş vətəndaşlara kompensasiya ödənilməlidir.

**Millət vəkili, Vəhdət Partiyasının sədri, Ali Məhkəmənin keçmiş rəhbəri Tahir Kərimli hesab edir ki, mülkiyyət hüquqları pozulmuş insanların haqqı bərpa olunmalıdır. Deputatın sözlərinə görə, vətəndaşların dövlətdən narazı qalmasına imkan verməl olmaz:** "Problem odur ki, Azərbaycan özəlləşmə prosesini çox sürətlə həyata keçirtdi. Təsəvvür edin, Böyük Britaniyada 200 il ərzində başladılan özəlləşdirmənin hələ 85 faizi icra olunub. İllər əvvəl ölkədə tuğyan edən "qara bazar" qiymətləri kağızların ciddi alqı-satqı yerinə çevrilmişdi. Dəllallar insanların əlindəki vauçeri su qiymətinə ələ keçirdilər. Xeyli vətəndaş isə çekləri satmadı, saxladı və dəyərinin artmasını gözlədi. Nəticədə insanların əllərində minlərlə özəlləşdirmə çeki qaldı. Onlar gələcəkdə daha optimal variantın gələcəyinə ümid edirdilər. Amma gözlədikləri kimi olmadı. Milli Məclisin iclasında Qarabağda həyata keçiriləcək özəlləşdirmə prosesi ilə bağlı çıxış edərkən bu məsələni gündəmə gətirdim. Qeyd etdim ki, keçmişdə aparılan özəlləşmədən dərs almalı, nəticə çıxartmalıyıq. Qüsurları yenidən təkrar etməməliyik. Minlərlə insanın mülkiyyət hüququ pozulub. Çünki 2011-ci ildə özəlləşdirmə çeklərinin müddəti başa çatıb və çeklərin dəyəri sıfırlanıb".




*Parlament üzvü bildirib ki, çeklər əvəzi ödənilmədən dəyərdən düşmüş sayılıb:* "Bəzi insanlarımız ya dolanışığa görə çeklərini satıblar, ya da imkan edib dövriyyəyə buraxa bilməyiblər. Bununla bağlı bizə də çoxsaylı müraciətlər daxil olur. Axı bu insanların günahı nədir? Niyə dövlətdən narazı qalmalıdırlar? Həm Konstitusiyamıza, həm beynəlxalq hüquqa görə vətəndaşın vəziyyətini yaxşılaşdıran hallar keçmişə şamil olunur. Elə qanun qəbul etməliyik ki, vauçer sahibləri özəlləşmədən faydalana bilsinlər. Problemin müsbət həllinin tərəfdarıyam. Dövlətimizin buna imkanı çatır. Xüsusi qərarla, Neft Fondundan maliyyə ayırmaqla həmin vətəndaşlarımızın pozulmuş haqqı təmin oluna bilər". **Hüquq müdafiəçisi Novella Cəfəroğlu da düşünür ki, problem mütləq mənada zərərçəkmiş vətəndaşların xeyrinə həll olunmalıdır. Ekspert bildirib ki, minlərlə insan özəlləşdirmə çekini saxlayır və nə vaxtsa dəyər qazanacağına ümid edir:** "Problem həllini tapmalıdır. Vətəndaşların pozulan hüquqlarını bərpa etmək lazımdır. Yaxşı olar ki, vauçerlər hansısa müəssisənin özəlləşdirilməsinə cəlb olunsun. Şəxsən mən çeklərin əvəzinə pul deyil, özəlləşdirmədə pay sahibi olmağı istəyərəm. Qoy, ailəm, nəvələrim mülkiyyət hüququndan faydalansınlar. Dövlət və Milli Məclis bu məsələyə çox ciddi yanaşmalı və reaksiya verməlidir. Bu qədər adamın əlində çek var". N.Cəfəroğlunun fikrincə, əgər özəlləşdirmə prosesi yubanarsa, çeklərin əvəzinə vətəndaşlara kompensasiya ödənilə bilər: "Bu, elə ciddi maliyyə tələb etmir. Amma yenə deyirəm, qiymətli kağızların özəlləşdirməyə cəlb olunması, tədavülə buraxılması daha məqbuldur. Birdəfəlik vəsait bir müddət sonra bitəcək. Amma mülkiyyət hüququndan istifadə edən vətəndaşlar daimi qazanc əldə etmək imkanı əldə edəcəklər". Məlumat üçün qeyd edək ki, özəlləşdirmə çekləri ulu ö ndər Heydər Əliyev tərəfindən 1997-ci ilə qədər anadan olmuş bütün ölkə vətəndaşlarına miras əmlak payı olaraq verilib. Bu çeklər dövlət qiymətli kağızları olmaqla yanaşı, həm də mülkiyyət hüququ daşıyır. Çeklərin hər birinin dəyəri eynidir. Qanuna əsasən, özəlləşdiriləcək bütün iri və orta dövlət əmlakının ən azı 65 faizi özəlləşdirmə çekləri ilə əvəzlənməli, özəlləşdirmə prosesi bu şəkildə həyata keçirilməlidir. Hər bir çekin dəyəri isə 1/32 milyonda hissədir. Bu hissəyə düşən əmlak ekvivalenti payı qanunda inflyasiyadan qorunan əmlak ekvivalenti payı kimi göstərilib. Eyni zamanda bu özəlləşdirmə paylarının banklarda girov qoyulması hüququ qanunla təmin olunub. Bu, o deməkdir ki, özəlləşdirmə çeklərinin hər birinə dövlət əmlakından düşən səhmlərin dəyəri eyni olmalıdır.

**Aydın Baxış**

# "Aksiyalar effektli olmayacaq"

## Tural İsmayılov: "Erməni xalqı Vanetsyana və onu gizli şəkildə dəstəkləyən Sarkisyan-Koçaryan cütlüyünə yaxşı bələddir"

**Ermənistan müxalifəti müddətsiz etiraz aksiyası elan edib. Bu barədə İrəvanın Azadlıq meydanındakı mitinqdə çıxış edən müxalifət lideri Artur Vanetsyan bildirib. Məlumat üçün bildirək ki, axşam saatlarında polis etirazçıların çadır qurmaq cəhdinin qarşısını alıb və onlarla etirazçını saxlayıb. Bundan sonra Vanetsyan hakimiyyətin çadırların qurulmasına icazə verib-verməməsindən asılı olmayaraq, meydanı tərk etməyəcəyini bəyan edib.**

Vanetsyan aksiyada "Mən buradan heç yerə getmirəm", "qeyri-müəyyən etirazlara başlayırıq" kimi şüarlar səsləndirib. Ermənistan müxalifəti Baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq istəyini bildirib. "Şərəfim var" fraksiyasının lideri və Ermənistan Milli Təhlükəsizlik Şurasının keçmiş direktoru Artur Vanetsyan bunun üçün "yol xəritəsi"nin tərtib olunacağını bildirib. Vanetsyanın əsas tələbi Baş nazir Nikol Paşinyanın Azərbaycanla danışıqlarına mane olmaq, sülh sazişinin bağlanmasını rədd etməkdir. O hesab edir ki, bütün bunlar Qarabağın birdəfəlik itirilməsi deməkdir. Ona görə müxalif lider hamını küçəyə çıxmağa, Paşinyana etiraz etməyə səsləyir. Xatırladaq ki, Nikol Paşinyanın parlamentdəki çıxışından sonra da "Ermənistan" və "Şərəfim var" fraksiyaları mitinq keçirmişdilər. Mitinqdə 10 min adamın iştirak edəcəyi bəyan olunsa da, aksiya təşkilatçıları buna nail ola bilmədilər. İndiki aksiyanın da xalq tərəfindən ciddi dəstək alacağı inandırıcı görünmür. Ermənistanda azsaylı aqressiv millətçi kütlə olsa da, bütövlükdə erməni cəmiyyətini nə "Miatsum", nə də "Artsax" şüarı ilə küçəyə çıxarmaq mümkün deyil.



### *"Etiraz aksiyalarının əsas qayəsi Paşinyanı devirməkdir"*

**Ermənistandakı etirazlarla bağlı "Şərq"ə danışan siyasi icmalçı Tural İsmayılov deyib ki, Artur Vanetsyanın rəhbərlik etdiyi "Şərəfim var" və Robert Koçaryanın "Hayastan" bloku müxtəlif dövrlərdə Baş nazir Nikol Paşinyana qarşı koordinasiyalı fəaliyyət göstəriblər. Ekspertin fikrincə, etiraz aksiyalarının əsas qayəsi Paşinyanı devirməkdir:** "Növbədənkənar parlament seçkisindən əvvəl də Ermənistan müxalifəti aksiyalar keçirirdi. Erməni xalqı pislə, daha pis arasında seçim edərək Paşinyana səs vermişdi. İndiki mərhələdə bu tip aksiyalar Ermənistan-Azərbaycan arasında başlanmış sülh danışıqları və Türkiyə ilə münasibətlərin normallaşması prosesinə təsadüf edir. Burada əsas hədəf müzakirələri sabotaj etməkdir. Aksiyalar effektli olmayacaq. Erməni xalqı Vanetsyana və onu gizli şəkildə dəstəkləyən Sarkisyan-Koçaryan cütlüyünə yaxşı bələddir. İctimaiyyət aksiyaların nəyə xidmət etdiyini anlayır. Burada üçüncü qüvvələrin iştirakı da açıq-aşkar hiss olunur. İrəvan-Bakı münasibətlərinin normallaşmasını arzulamayan xarici güclər erməni müxalifətindən yararlanaraq prosesi pozmağa cəhd göstərirlər. Lakin aksiyaların nəticə verəcəyini düşünmürəm".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi



# "Qəsəbələrdə küçələrimizə şəhidlərin adı verilməlidir"

**Ədalət Verdiyev: "Bu tədbirlərdə iştirak edən yeniyetmələr, gənclər, lap kiçik yaşlı uşaqlar şəhidliyin necə uca məqam olduğunu anlayır, dərk edir, Vətəni müdafiə etməyin hər bir vətəndaşın birinci vəzifəsi olduğunu öyrənir"**

**Xalqımız şəhidlərin, qəhrəman oğulların xatirəsini daim əziz tutur, Vətənin müdafiəsində dayanan, sinəsini düşmənə sipər edənləri hər zaman ehtiramla yad edir. Bu ənənə nəsildən-nəslə ötürülür, xalqımızın qəhrəmanlıq dastanlarında, ədəbi nümunələrdə, mahnılarda tərənnüm edilir.**

Gənclərimiz də Vətəni sevməyi valideynlərindən öyrənir, qəhrəmanlıq ruhunun daşıyıcısına çevrilirlər. Gənclərin vətənpərvər ruhda yetişməsində şəhidlərin xatirəsinə həsr olunan tədbirlərin keçirilməsi də böyük əhəmiyyət daşıyır. Müşahidə edildikdə bəlli olur ki, bu cür tədbirlərdə gənclər, yeniyetmələrlə yanaşı, azyaşlı uşaqlar da iştirak edir. Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış, Birinci Qarabağ müharibəsi şəhidləri Emin Musayev, Adil Əliyev və Əli Həsənovun xatirəsinə dünən anım mərasimi keçirilib. Mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Mərasimdə çıxış edənlər şəhidlərimizin şərəfli ömür və döyüş yolundan, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə göstərdikləri şücaətdən, eləcə də Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu zəfərin əhəmiyyətindən danışıblar. Şəhidlərin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Anım mərasimində şəhidlərimizə həsr olunan şeirlər, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirilib. Mərasimdə azyaşlı uşaqlar tərəfindən də Vətənə sevgi şeirləri ifa edilib. Oxşar məzmunlu tədbirlərin istər paytaxtda, istərsə də regionlarda, qəsəbələrdə müntəzəm keçirildiyini xatırlatmaq, bəlkə də artıqdır. Lakin bunu bir daha vurğulamaq istərdik ki, şəhidlərin, igid əsgərlərimizin xatirəsi bütün ölkə boyu daim qeyd edilir, ruhlarına ehtiram göstərilir. Bu səpkili tədbirlər rəngarəngliyi ilə seçiləndə xüsusilə yaddaqalan olur. Bir neçə gün əvvəl Qobustan rayonunda Qobustan Gənclər Evi və Qobustan rayon Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə Qalib Gənclərimizin "Zəfər Velo" yürüşü keçirildi. Qeyd edildiyi kimi tədbirin məqsədi Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsi olaraq Reşadətli Ordumuzun qazandığı Böyük Zəfərin başlanğıcı "Aprel döyüşləri" qəhrəmanlarını yad etmək və vətənpərvər gənclərimizin dövlətçilik naminə birliyini nümayiş etdirmək idi. Tədbirdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən sağlam və vətənpərvərlik ruhu yüksək olan gənclərin yetişdirilməsi üçün aparılan gənclər siyasətindən danışılıb, eyni zamanda "Aprel döyüşləri" qəhrəmanlarını yad edilib və Qobustan gənclərinin yüksək vətənpərvərlik ruhu müsbət qiymətləndirilib. Qobustan Gənclər evinin qarşısında "Velo yürüş"ün qırmızı lenti şəhidlərin valideynləri tərəfindən kəsilib və yürüşə start verilib. "Velo yürüş"ün marşrut xətti üzrə gənc idmançılar öncə Qobustan rayon Şəhidlər Xiyabanını, daha sonra şəhid Hacıyev Sərxan Eldar oğlunun xatirəsinə inşa edilmiş bulağı, şəhid Nadirov Fədail Fərhad oğlu adına əbədiləşdirilən şəhər mərkəzində yerləşən parkı və Vətən Müharibəsi Qəhrəmanı Elyar Arif oğlu Vəliyevin xatirəsinə inşa edilmiş bulağı ziyarət ediblər. "Velo yürüş"də ümumilikdə 30 velosiped sürən gənc iştirak edib.

**Bu cür tədbirlərin keçirilməsinin gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində xüsusi önəmi olduğunu vurğulayan hərbi ekspert, ehtiyatda olan zabit Ədalət Verdiyev "Şərq"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan xalqının şəhidlərini və qəhrəman oğullarını yaddan çıxarması mümkün deyil:**

- Vətənə sevgi, torpağa məhəbbət, Vətən uğrunda şəhidlik zirvəsinə ucalmağı ən ali məqam sayan xalqımızın şəhidləri, Vətən uğrunda canını verənləri, sağlamlığından keçənləri unutması, əlbəttə, qeyri-mümkündür. Vətən sevgisi hər bir övlada ana südü, ata öyüdüylə ötürülür. Amma məsələnin digər tərəfi şəhidlərin xatirəsinin daim ehtiramla yad edilməsidir ki, bununla həm də gənclərin nümunəvi vətəndaş kimi yetişməsinə önəmli töhfə verilir. Bu tədbirlərdə iştirak edən yeniyetmələr, gənclər, lap kiçik yaşlı uşaqlar şəhidliyin necə uca məqam olduğunu anlayır, dərk edir, Vətəni müdafiə etməyin hər bir vətəndaşın birinci vəzifəsi olduğunu öyrənir. Təkcə tədbirlərlə də işimiz yekunlaşmamalıdır. Mən təkliflər səsləndirmişəm ki, şəhidlərimizin adları əbədiləşdirilməlidir. Nə qədər yeni qəsəbələr var ki, orada saysız-hesabsız adsız küçələr mövcuddur. Təcili yardıma zəng edəndə vətəndaş küçə adı, dəqiq ünvan deyə bilmir. Bu küçələrə şəhidlərimizin adı verilsə, bu həm şəhidlərin əziz ruhuna daha bir ehtiram əlaməti olar, həm də əhali şəhidə necə saygı göstərildiyinə bir daha əmin olar. Şəhidin adını daşıyan, şəhidin xatirə lövhəsi olan küçədə yaşamaq, şəhidlə eyni məhəllənin "sakini" olmaq gənclərimizə daha yüksək stimul, daha yüksək ruh verər. Hesab edirəm ki, bu cür tədbirlər fasiləsiz keçirilməlidir. Cənab Prezidentin göstərişi ilə hər bir rayon icra hakimiyyətində şəhidlər, müharibə qaziləri, müharibə veteranları ilə bağlı ayrıca şöbə yaradıldı. Bu şöbələrin fəaliyyəti ondan ibarət olmalıdır ki, hər bir şəhid, qazi ailəsi barədə məlumatlara malik olsunlar, şəhidin doğum və şəhidlik tarixini qeyd etsinlər, bu tarixlərdə ailələrə səfər edib, onları yad etsinlər, xüsusi anım mərasimləri keçirsinlər. Və o ailələrin problemləri ilə maraqlansınlar, həllinə çalışsınlar. Dövlətimiz üzərinə düşəni onsuz da edir. Yerlərdə də dövlət orqanları şəhid ailələrini, qaziləri diqqətdən kənarda qoymamalıdır. Daim onlarla maraqlanmalı, sosial vəziyyətlərindən xəbərdar olmalıdırlar.

**Ə.Verdiyev bildirdi ki, bu gün bayrağımız Şuşada, eləcə də işğaldan azad edilmiş digər ərazilərimizdə dalğalanırsa, bunun əsas səbəblərindən biri də əsgər valideynlərinin dik dayanmasıdır:**

- Müharibədə əsgər əsgərə qalib gələ bilər. Əsas bir xalqın digər xalq üzərində qələbə çalmasıdır. Biz Böyük qələbəmizi həm də dik dayanan əsgər analarının, şəhid valideynlərinin, igid əsgərlər yetişdirmiş ata-anaların, təqaüdünü son manatadək ordumuza bağışlayan rəşid babaların hesabına qazandıq. Şəhid valideynlərinin "qürurluyam, çünki oğlum Vətən uğrunda şəhid olub", deyərək vüqarla dayanan ata-anaların hesabına biz bu gün qələbədən danışırıq. Şəhidlərimizlə yanaşı, bu valideynlər də hər bir gəncimizə əsl nümunədir, əvəzsiz örnəkdir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Rusiyanın iflası an məsələsidir

## Yüzlərlə iri şirkət və minlərlə peşəkar ölkəni tərk edir

"Ukrayna Rusiya ilə 10 il müharibə aparmağa hazırdır". Bu sözləri Ukrayna Prezidenti Volodimir Zelenski deyib. O, Qərbi silah tədarükünü sürətləndirməyə çağırıb: "Sursat bu gün və sabah lazımdır, 2-3 aydan sonra yox". Zelenski bildirib ki, Rusiya ilə uğurlu danışıqlar şansı azalır, Ukrayna cəmiyyəti dialoqu davam etdirmək istəmir. Ukrayna rəhbəri fransalı həmkarı Emmanuel Makronu ölkəsinə dəvət edib: "Düşünürəm ki, Makron Rusiyanı dialoqa cəlb etmək üçün bəzi addımlar atmaq istəyir. Sadəcə ona dedim ki, bu, müharibə deyil, soyqırımdır. Gəlib görəcək və əminəm ki, başa düşəcək". Qeyd edək ki, Makron Buşa və İrpendəki olayları soyqırım adlandırmaqdan imtina edib və soyqırım məsələsini siyasətçilərin deyil, hüquqşünasların müəyyən etməli olduğunu bildirib.



*"Putin bu müharibə ilə həm də ölkəsini və xalqının gələcəyini məhv edir"*

### Rusiya hər həftə ağır zərbə alır

Avropa Komissiyasının sədri Ursula fon der Leyen deyib ki, Moskvaya qarşı cəza tədbirləri artıq işə düşməyə başlayır: "Sanksiyalar Rusiya iqtisadiyyatına hər həftə daha da dərin zərbə vurur. Rusiyaya ixrac 70 faiz azalıb. Rusiyanın 700 təyyarəsi ehtiyat hissələri və proqram təminatının yenilənməməsi səbəbindən lisenziyasını itirib. Yüzlərlə iri şirkət və minlərlə peşəkar ölkəni tərk edir. Hazırkı proqnozlara görə, Rusiyanın ümumi daxili məhsulu 11 faiz azalacaq. Rusiyanın milli iflası an məsələsidir. Putin bu müharibə ilə həm də ölkəsini və xalqının gələcəyini məhv edir".

Luqansk vilayətinin administrasiyasının rəhbəri Sergey Qayday deyib ki, rus işğalçıları Luqansk vilayətinin Kremennaya şəhərinə daxil olublar: "Ruslar Kremennaya şəhərinə girdilər. Küçə döyüşləri başlayıb. Təxliyə mümkün deyil".

### Rusiya Dnepr şəhərinə raket zərbələri endirib

Rusiya Ukraynanın Dnepr şəhərinə iki raket zərbəsi endirib. Dnepr regional hərbi administrasiyasının rəhbəri Valentin Rezniçenko bildirib ki, Rusiya səhər saatlarında Sinelnikov və Pavloqrad rayonlarını raket zərbələri ilə vurub. Nəticədə Sinelnikovda iki nəfər yaralanıb. Zərbə nəticəsində, eyni zamanda dəmir yolu infrastruktur obyektinin də zədələndiyi bildirilib.

Lvov vilayətinin rəhbəri Maksim Kozitski Rusiya ordusunun Lvova raket zərbələri endirdiyini söyləyib: "Qərb Hava Komandanlığının məlumatına görə, bu gün səhər saatlarında Lvova dörd raket zərbəsi endirilib. Üçü hərbi infrastruktura endirilib. Zərbələr nəticəsində yanğınlar baş verib. Yanğının söndürülməsi hələ də davam edir. Obyektlərə ciddi ziyan dəyib. Təəssüf ki, ölənlər və yaralananlar var. Bu saata olan məlumata görə, 6 ölü və 8 yaralı var. Ölənlər arasında bir uşaq da var".

### "Rusiya Lvova raket zərbələrini Xəzərdən endirib"

Lvov regional hərbi administrasiyasının rəhbəri Maksim Kozitski qeyd edib ki, Ukraynanın Lvov şəhərinə endirilən qanadlı raketlər Xəzər dənizi regionundan buraxılıb. O qeyd edib ki, bu gün təxminən 08:30 radələrində Lvova ümumilikdə 4 raket zərbəsi endirilib: "İlkin məlumata görə, onlar Xəzər regionundan buraxılıblar. Raketlərdən üçü hərbi infrastruktur obyektini vurub". Kozitski raket zərbələri nəticəsində 7 nəfərin həlak olduğunu və biri uşaq olmaqla, 11 nəfərin yaralandığını qeyd edib. O, itkilərlə bağlı rəqəmlərin dəyişə biləcəyini vurğulayıb. Vilayət rəhbəri zərbələrdən sonra baş vermiş yanğının söndürülüyünü əlavə edib.

### Ukraynanın Stalinqradı: Rusiya heç cür bacarmır

Britaniya Müdafiə Nazirliyindən isə bildirilib ki, Rusiya qoşunları hələ də Mariupolu tam ələ keçirə bilmir. Şəhər müdafiəçilərinin müqaviməti bütün əməliyyat bölgələrində rus ordusuna problem yaradır: "Rusiya komandanlığı Mariupolun alınmasının nə qədər vaxt aparacağından narahatdır. Ukraynanın yaxşı əlaqələndirilmiş müqaviməti Rusiya qüvvələrini ciddi sınaqdan keçirdi, ordu və texnikanı yayındırdı, Rusiyanın başqa yerlərdə irəliləyişini ləngitdi".

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Kiyev artıq razılaşdırılmış məsələlərlə bağlı mövqeyini tez-tez dəyişir: "Xüsusi hərbi əməliyyat davam edir. Bu yaxınlarda Rusiya Prezidenti Vladimir Putin dedi ki, bu, plan üzrə gedir. Eyni zamanda, danışıqlar prosesi çərçivəsində ekspertlər səviyyəsində təmaslar davam edir. Mən Prezidentin sözlərini də xatırlatmaq istəyirəm ki, təəssüf ki, Ukrayna tərəfi o qədər də sabitlik nümayiş etdirmir, razılaşdırılmış məqamlarla bağlı mövqeyini tez-tez dəyişir". Kiyevin Krımın statusunu və NATO-ya üzv olmaqdan imtinanı müzakirə etməyə hazır olacağına dair bəyanatını şərh edən Peskov bildirib ki, Rusiya Federasiyası əvvəlki kimi danışıqlar zamanı müzakirə olunan məqamları ictimaiyyətə açıqlamağa hazır deyil.

### "Qərb də müharibənin davam etməsində maraqlıdır"

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov "Şərq"ə deyib ki, müharibə hələ davam edəcək. Ekspertə görə, ABŞ və Avropa ölkələrinin Ukraynanı silah-sursatla təmin etməsi göstərir ki, Qərb də savaşın davam etməsində maraqlıdır:** "Qərbin sanksiyaları Rusiya ordusuna ciddi zərbə vurmaqdadır. Rus ordusunda da narahatlıq artmaqdadır. Ukrayna rəsmi qurumlarının məlumatına görə, rusların 20 mindən artıq canlı qüvvəsi məhv edilib. Məsələ ondadır ki, Moskva bir neçə dəfə geri addım atmaq istəyib. Sadəcə, Kreml birinci mərhələdə ciddi məğlubiyyətlə üzləşib... birinci mərhələ məğlubiyyətlə müharibəni sonlandırmaqdan çəkinir. Bu addımı atacağı təqdirdə Rusiya üç məsələdə böyük itkilər verəcək. Birincisi, iqtisadi baxımdan Rusiya sanksiyalardan yaxa qurtara bilməyəcək. İkincisi, silah-sursat bazarında dominantlığı itirəcək. Üçüncüsü isə beynəlxalq nüfuzundan, siyasi təsir gücündən məhrum qalacaq. Ukraynadan məğlub ayrılmaq digər ölkələr üçün də presedent ola bilər. O halda Rusiya Qafqazdan, Mərkəzi Asiyadan, Yaxın Şərqdən və Şimali Afrikadan çəkilmək məcburiyyətində qalacaq. İndiki halda Rusiya ordusu "hücum" taktikası ilə vəziyyəti xeyrinə dəyişməyə cəhd göstərir. Daha doğrusu, Kiyevi danışıqlar masasına oturtmağa çalışır. Lakin Zelenskinin açıqlamalarından aydın olur ki, Kiyev geri çəkilmək, nəyisə güzəştə getmək fikrində deyil. Kiyevin əsas qayəsi Moskvanı beynəlxalq birlik qarşısında tamamilə neytrallaşdırmaqdır. Yaxın dönəmdə sülhün əldə olunacağı inandırıcı görünmür. İstənilən halda Rusiya məğlub tərəfdir. Qərb ölkələri isə daha qazanclı çıxacaq".

**İsmayıl Qocayev**



# Qardaş, qardaş deyirlər, amma dəyişmirlər

## İranlı general münasibətlərin üzərinə kölgə salır

**İran ordusunun Quru Qoşunları komandanı, briqada generalı Əmir Kiumərs Heydəri qonşu ölkələrdən biri haqda hədə ilə danışıb. O, ad çəkmədən Azərbaycanda İsrail qüvvələrinin olduğu barədə keçmiş ittihamları yenidən dilə gətirib.**

"Mühüm və strateji şimal-qərb bölgəsində baş verən Qarabağ müharibəsi zamanı (2020-ci ildə 44 günlük müharibə) İranın Ali Baş Komandanının əmri ilə əldə etdiyimiz məlumatlara görə, "qeyri-legitim İsrail rejimi" qonşu ölkələrin birinin ərazisində fəaliyyət göstərib və regiondakı geosiyasi vəziyyəti dəyişməyi planlaşdırıb. Həmin vaxt İran Silahlı Qüvvələri ölkənin şimalında hərbi təlimlər keçirirdi.

Biz iki vacib və strateji şərt irəli sürdük: birincisi, biz regionun geosiyasətində dəyişikliklərə imkan verməzik. İkincisi, sionist rejimin əlaltıları bölgəni tərk etməlidirlər. Biz ərazidə qaldıq və bu iki şərt yerinə yetirildi", - deyə general vurğulayıb.

Generalın sözlərinə görə, İran regionda "sionist rejim"in fəaliyyətlərinin müşahidəsinə davam edir.

**Generalın təhdidlərinin real səbəbləri barədə "Şərq"ə danışan politoloq Sədrəddin Soltan bildirib ki, iqtisadi sahədə tərəflərin əlaqəsi normal şəkildə irəliləyir:**

"Türkmənistandan İrana göndərilən qazın Azərbaycan ərazisindən ötürülməsi kimi müqavilələr var. Amma İranda İnqilab Keşikçiləri Qvardiyası, generallar Azərbaycana qarşı hədələyici çıxışlar edirlər. Bir müddət əvvəl İran İnqilab Keşikçilərinin Qvardiyasının videosu yayıldı. Həmin materialda Azərbaycan və Türkiyə ərazisi təhdid altında idi və s. Dünən briqada generalı Əmir Kiumərs Heydəri Azərbaycanla bağlı doğru iddialar səsləndirib.

Deyir, Azərbaycan ərazisində İsrail qüvvələri yerləşib. Guya, İran Azərbaycanla sərhəd ərazisində hərbi təlim keçirdikdən sonra Azərbaycan İsrail qoşunlarını çıxarıb. Yəni ölkəmiz öz ərazisində fəaliyyətini İranın təhdidi ilə geri çəkib".

**Politoloq İran hakimiyyətinin əsas qolu sayılan ordu generalının çıxışının iki dövlət arasındakı münasibətlərə zidd olduğunu vurğulayıb:**

"44 günlük müharibə zamanı ölkəmizə dair əks təbliğat aparması, Ermənistan ordusuna Rusiya ilə birlikdə yardım etdiyi üçün cəmiyyətimiz İrana etimad göstərmir. Belə şəraitdə prezident, ali rəhbərlər və s. Azərbaycanla bağlı xoş sözlər bildirməklə, etimad qazanmağa çalışdılar. Əmir Kiumərs Heydəri etimadın üzərinə kölgə salır.

İran tərəfi nə qədər üzümüzə gülsə də, şüuraltı şəkildə Azərbaycanı özünə düşmən görür.

"Qardaş" söyləsələr də, dəyişmirlər. Dar məqamda köhnə məsələləri gündəmə gətirirlər. Prezidentimiz həmişə sülhməramlılar istisna, Azərbaycanda üçüncü ölkənin ordusu yoxdur deyə, diqqətə çatdırıb. İran müharibə dönəmində Ermənistana Qarabağdakı separatçılara göstərdikləri yardımı örtbasdır etməkdən ötrü hay-küylərdən yararlandı.

Sonra da atdığı addımların yanlışlığını anladı, diplomatik jestlərlə münasibətlərin bərpasına səy göstərdi".

**Aygün Tahir**

# "Blogerlərə fanatlıq işsiz, təhsilsiz gənclərin məşğuliyyətidir"

## Qan Turalı: "Fanatizmə düçar olan şəxsin bir amalı yoxdur və o, məqsədsiz həyat sürür"



**Bloger Hüseyn Həsənov Bakıda fanatları ilə görüşüb. Görüşdə izdiham yaşanıb və bu görüntülər sosial şəbəkələrin gündəminə çevrilib. Döyən kim, döyülən kim, huşunu itirən kim. Yayılan videolardan ən səs-küylüsü isə bir nəfər şəxsin əlindəki alətlə insanları vurması olub.**

Minlərlə adamın heç bir istedadı, yaradıcılığı olmayan, sosial şəbəkələrdə oliqarx həyatını paylaşıb "fenomen"ə çevrilən Hüseyn Həsənov üçün əldən-ayaqdan getməsi ölkə ictimaiyyəti tərəfindən xoş qarşılanmayıb. Birini bəyənmək, sənətini, işini izləmək, lazım gəldiyində yaxşı mənada faydalanmaq da olar. Burada böyük bir qəbahət yoxdur.

Sadəcə, fanatlığın da həddi var. Bir də ki, aşırı fanatlıq var. Bu, fanatlıq deyil, acgözlükdür, görməmişlikdir.

Qeyd edək ki H.Həsənov Rusiyanın ən məşhur video blogeri hesab edilir. Sankt-Peterburqda Azərbaycan əsilli iş adamının ailəsində anadan olan blogerin valideynləri restoran biznesi ilə məşğuldurlar. Stend-up komediyaçısı kimi fəaliyyət göstərib, universiteti bitirdikdən sonra instaqram üçün videoçarxlar çəkib. Hüseyni hazırda instaqramda 21 milyondan çox insan izləyir.

*Çox maraqlıdır, niyə bir blogerə bu qədər maraq var?*

**Yazar Qan Turalı "Şərq"ə açıqlamasında deyib ki, fanatlıq təfəkkür cılızlığıdır. İnsanları "onlar və biz"ə bölən ən vəhşi instinktdir:** "Həmişə olub və həmişə olacaq. Ona görə də bu hadisəni bu qədər şişirtməyə, sanki ilk dəfəymiş kimi heyrət etməyə ehtiyac görmürəm. Baş verənlərdə qeyri-adi heç nə yoxdur. Cəmiyyət olaraq yaddaşımız zəifdir deyə, aradan bir müddət keçəndə qarşılaşdığımız hadisəni sanki heç yaşamamışıq kimi reaksiya veririk. İlk dəfə deyil ki, biz hansısa məşhurla görüşdə bu cür izdiham yaranmasına şahidlik edirik. Zaman və pərəstiş edilən şəxs dəyişsə də təfəkkür eynidir.

***"90-cı illərin əvvəllərində bizim gənclərimiz, xüsusən də qızlar "küçük Əmrah" üçün əldən-ayaqdan gedirdilər"***

90-cı illərin əvvəllərində bizim gənclərimiz, xüsusən də qızlar "küçük Əmrah" üçün əldən-ayaqdan gedirdilər. Əmrah Bakıya gələndə də onun fanatları arxasınca ora-bura qaçır, ona yaxınlaşmaq üçün hay-həşir salırdılar. Blogerlə görüş sosial şəbəkələrdə yayılandan sonra hamı başladı status paylaşmağa ki, ölkəmizdə nə qədər axmaq gənc varmış. Sanki dünənə qədər hamı Nobel mükafatı laureatı idi, nə bilim, Bethovenə qulaq asır, əlində romanla gəzirdi, Hüseyn Həsənov gələndən sonra onların varlığı üzə çıxdı?! Gənclərin blogerlərə fanatlıq etməsi müasir dövrün reallığıdır, bunu da təbii qarşılamaq lazımdır".

**Yazarın sözlərinə görə, əvvəllər futbolçuların, müğənnilərin, aktyorların, şairlərin fanatları olardı. Bütün dünyada var bu tendensiya:** "Tək bizim ölkə üçün xarakterik bir məsələ deyil. Bunu konsertlər zamanı zaldakı tamaşaçıların davranışlarında çox yaxşı müşahidə etmək mümkündür. Blogerlərə fanatlıq bir növ işsiz, təhsilsiz gənclərin məşğuliyyətidir.

Kənardan elə zənn olunur ki, blogerlərə fanatlıq edən şəxslər nə istədiklərini çox yaşı bilirlər. Amma əslində fikir versək, başa düşərik ki, fanatizmə düçar olan şəxsin bir amalı yoxdur və o, məqsədsiz həyat sürür. Kimisi dərd-qəmini unutmaq üçün bu insanların hər addımını izləyərək gününü keçirir. Kimiləri də blogerlərin yediyi yemək, içdiyi su, yaşadığı ev, sürdüyü maşına görə onları izləyib onlar kimi olmağın xəyalını qurur. Müasir dövrdə böyük ideyalar, fəlsəfələr, din və s. ideologiyalar öz əhəmiyyətini itirdiyi üçün bu boşluğu sosial media fenomenləri doldurur".

**Şəymən**

# Vüqar Əbdülov küsüb



**Meyxanaçı Vüqar Əbdülov verilişlərə çıxmamasının səbəbini açıqlayıb.**

Axşam.az xəbər verir ki, sənətçi "Şourum" proqramına açıqlamasında hər kəsdən küsdüyünü söyləyib: "Səbəbi burada danışmayacam. Başqa vaxt açıqlayaram. Efirə çıxmamağımın səbəbi qonorar istəmək deyil. Hər kəsi özünə görə qarşılayıb yola salmaq lazımdır. Yaradıcılıqdan başqa hər şey onlara maraqlıdır. Mən də bacardığım qədər sənətimi qoruyuram. Nə instaqrama, nə feysbuka, nə də digər sosial şəbəkələrə girirəm. Heç birinə çıxmıram. Belə yaxşıdır. Baxın, ad günüm idi, hansı radio, telekanal 1 dəqiqəlik süjet verdi?".

**Elanlar**

Bakı şəhəri, Səbail rayonu, Teymur Elçin küçəsi, ev 11, mənzil 8 üçün Buniatzada Elmira Cahangir qızının adına verilmiş Çıxarış itdiyi üçün etibarsız sayılır.

Hümbətov Elmir Rövşən oğluna məxsus avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Əzimov Ruslan Qoşun oğluna məxsus Bakı şəhəri, Abşeron rayonu, Masazır kəndi, İstiqlaliyyət küçəsi, "Qurtuluş-93", "Baxçalı evlər" MTK yaşayış kompleksi bina 4, mənzil 43 ünvanına verilən müqavilə itdiyi üçün etibarsız sayılır.

"CASPİAN FİSH CO AZERBAİJAN" MMC
VÖEN 3100064091
"CASPİAN FİSH CO AZERBAİJAN" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 3100064091) nizamnamə kapitalının 1004.80 (min dörd manat səksən qəpik) manat məbləğdən 1100 (yüz) manat məbləğə azaldığını elan edir. Nizamnamə kapitalının azaldılması ilə əlaqədar kreditorlar bir ay ərzində öz tələblərini AZ0100, Abşeron rayonu, At-Yali kəndi ünvanına bildirə bilərlər.

# Hüseyn "aşiqləri"

## "Onlara Həsənov, yaxud da "İphone" "sürüsü" demək olar"

**Sosial şəbəkədə fenomen olan, Rusiyada yaşayan bloqer Hüseyn Həsənov Bakıda fanatları ilə görüşüb. Görüşdə izdiham yaşanıb. Xeyli sayda pərəstişkarı, xüsusilə gənclər toplaşıb.**

Görüntülər sosial şəbəkələrin gündəminə çevrilib.

H.Həsənov "28 MALL" ticarət mərkəzində "İphone" markalı telefon paylayacağını əvvəlcədən bildirib.

Qeyd edək ki, Rusiyanın ən populyar videoblogerlərindən sayılan Hüseyn Həsənov Sankt-Peterburqda anadan olub, bu şəhərin iqtisadiyyat universitetinin iqtisadiyyat və maliyyə fakültəsini bitirib. Restoran biznesinə sahibdir.

Bloqerin özünün dediyinə görə, "İnstagram" səhifəsində bir reklam paylaşımının qiyməti 600-700 min rubla bərabərdir, hər bir paylaşım isə 33 milyondan çox baxış sayı toplayır. Hazırda onun "İnstagram" səhifəsinin 6,6 milyon abunəçisi var.




**Sahib Altay:** "XXI əsrdə də eyni sürülər mövcuddur: "İphone", "KFC" "Coca Cola", "McDonalds" sürüləri"

**Mədinə Rəsulova:** "Adıçəkilən şəxsi "ilahiləşdirmək", bir-birinə şiddət göstərmək acı bir görüntüdür"

**Gündəm hadisəylə bağlı fikirlərini "Şərq"lə bölüşən sosioloq Sahib Altay bildirib ki, insan müəyyən xüsusiyyətlərinə görə, təbiətdəki digər canlılardan fərqlənir və mədəniyyət yaradıcısıdır:**

"Bəzən eyni mənalı sözü işlətdikdə eqoizm fonunda insanlar kütləvi şəkildə hücum çəkirlər. Sürü kəlməsini nəzərdə tuturam. İnsan digər canlılar kimi həm praktiki, həm də düşüncə baxımından sürü təfəkkürünə əsaslanır. Toplum iki hissədən ibarətdir: fərdlər və kütlə. Kütlənin hər bir nümayəndəsi fərd adlanır. Təfəkkür baxımından yanaşan fərdlər isə yeni, fərqli düşünə bilirlər. Kütlə isə səviyyəsindən aslı olmayaraq, sürünün fikriylə razılaşır, fərqli düşünmür. Yalnız bir qəlibin ətrafında birləşir. Tutalım, hansısa çayın o tayından, bu tayına keçmək istəyən heyvan sürüsü bir yerdə dirənir. Sürünün önündə gedənlərdən biri tullanaraq yataqdan keçir. Digər üzvlər təhlükəsizliyi görərək hərəkəti təkrarlayırlar. İnsan da belədir. 5 nəfər bir obyektin qarşısına yığışırsa, digəri də yaxınlaşır".

*S.Altayın sözlərinə görə, təbiətimizdən gələn mahiyyət dəyişmir:*

"Min illər öncə mağaralarda ovçuluq, yığıcılıq, yeni ərazilər kəşf etmək istəyən insan sürüləri var idi. XXI əsrdə də eyni sürülər mövcuddur: "İphone", "KFC" "Coca Cola", "McDonalds" sürüləri. İstənilən brendin təmsilçisi olan obyektin qarşısına gedəndə izdiham görürük. Təbiət balacaya sevgi duyur. Pələng, aslan ac ikən ceyranın balasını yeyir, lakin tox vaxtı aslan sürüsü ceyran balası ilə oynamağa başlayır. Niyə ? Çünki sürü təfəkküründən irəli gəlir. Hər balaca həyatdakı canlılığın nişanəsidir. Bu gün insanların diqqətini çəkmək üçün supermarketlərin qapılarına, pəncərlərinə uşaq şəkilləri yerləşdirilir. Halbuki marketdə minlərlə ərzaq var. Balacaya qarşı sevgi insanı marketə sürükləyir. Sürü təfəkkürü hər yerdə işləyir. Həmin hadisəni də "Hüseyn Həsənovun sürüsü", yaxud ""İphone" sürüsü" saymaq mümkündür. Dünyanın başqa ölkələrində də belədir. Lakin səviyyə fərqlidir. Almaniyadakı insan sürüsü ilə Azərbaycan sürüsünün fərqi ölkələrin yaşayış və düşüncə səviyyəsinə görədir. Bir sürü "İphone" arzulamaqla özü ilə qürur duyur, digəri isə "Nokia"nı istəyir".

**Psixoloq Mədinə Rəsulovanın sözlərinə əsasən, yeniyetmələrin çoxluq təşkil etməsi sosial şəbəkələrə axın və Hüseyn kimi fenomenlərə maraqdan irəli gəlir:**

"Sözügedən fenomenlər pərdəarxasını göstərmir. Hər zaman yaxşı, imkanlı, estetik tərəflərini nəzərə çatdırırlar. Yeniyetmələrin analiz qabiliyyəti, təhsili yüksək səviyyədə olarsa, məntiqi, intellektual zəka ortaya çıxardı. Görüşü baş tutan şəxs önəmli biri deyil. Onun aktiv həyatına nəzər salsaq, görərik, həqiqətən cəmiyyət üçün yararlı şəxs deyil. Adıçəkilən şəxsi "ilahiləşdirmək", bir-birinə şiddət göstərmək acı bir görüntüdür. Azad seçkilər həmin gənclərə "siz bizim gələcəyimizsiz" deyib onlara səs verilsə, özləri kimi seçərlər?! İnkişafları narahatedicidir".

**Psixoloq düşünür ki, kütlə psixologiyasının da təsiri mövcuddur:**

"10 nəfərlik qrupda deyilir, "bir nəfər gələcək, üç dəqiqədən sonra ayağa qalxıb əl çalacaqsız". Bir nəfər xəbərsizdir. Digərləri alqışlayanda, o da qalxıb əl çalacaq. Yüksək özvügüvən də önəmlidir. Belə halda axının arxasınca getməzdilər".

**Aygün Tahir**

Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com



# "Pərviz ailəli, mən isə subay xanımam"

## Türkan eşq iddialarını yalanlayıb

**Müğənni Türkan Vəlizadə duet ortağı, meyxanaçı Pərviz Bülbülə ilə "eşq yaşayır" iddialarını yalanlayıb.**

"Şərq"in məlumatına görə, müğənni "MTV Maqazin" kameralarına açıqlamasında sözügedən şayiələrdən boğaza gəldiyini vurğulayıb:

"Söz-söhbətlərdən bezmişəm. Məhz belə söhbətlər olduğu üçün tez-tez depressiya keçirirəm. Deyirlər, Pərvizlə duet oxuyursa, deməli, şəxsi münasibətləri var. Belə şeylər danışmaq çox ayıbdır. Biz duet oxuyuruqsa, o demək deyil ki, aramızda şəxsi münasibətlər var.

Söhbətlərə son qoyulsun. Pərviz ailəli bəy, mən isə subay xanımam. İlk gündən bizi yalnız sənət birləşdirir. Ekrana çıxıb, əlimi "Quran" kitabına qoyum ki, bizi yalnız duet ifalarımız birləşdirir? Başqa söhbət ola bilməz. Toydan ayrıldıq, məkanın qapısından çıxdıq, bizdə hər şey bitir".

**Aygün Tahir**

# Nümunəvi qazilərdən ibrət götürmək lazımdır

## Avtoşluq edən bəzi müharibə iştirakçıları əməllərindən çəkinməlidir



**Gəncədə toy karvanında avtoxuliqanlıq edərək ictimai asayişi pozan sürücülər saxlanılıblar. Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupu məlumat yayıb. Bildirilib ki, bir qrup gənc özlərinə məxsus müxtəlif markalı avtomobillərlə toy karvanında dövlət qeydiyyat nişanı olmadan, çoxavazlı səs siqnallarından və qanunla qadağan edilmiş sayrışan işıqlardan istifadə edərək yollarda intizamsızlıq edib.**

Yol hərəkəti qaydalarını kobud şəkildə pozaraq gənclər həmin görüntüləri sosial şəbəkələrdə paylaşıb. Gəncə şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin (ŞBPİ DYPB) əməkdaşları tərəfindən həmin şəxslərin bir qisminin kimliyi müəyyən olunaraq barələrində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib. Təəssüf doğuran məqamlardan biri isə onların arasında Vətən müharibəsi qazilərinin olmasıdır. Hazırda digər şəxslərin kimliyinin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində müvafiq tədbirlər davam etdirilir.

**Qarabağ qazisi Natiq Mehdiyev məlum hadisədə iştirak edən qazilərlə bağlı "Şərq"ə danışıb:**

"İkinci Qarabağ savaşından sonra son zamanlar belə hallar daha da çoxalıb. Bir qrup şəxs var avtoxuliqanlıq və ya digər qeyr-etik hərəkətlər etdikdən sonra dönüb deyir ki, mən vətən müharibəsi qazisiyəm. Əgər sən müharibədə iştirak edib öz həmvətənlərini ermənidən qoruyub gəlib burda avtoşluq edib özün onları öldürəcəkdinsə, niyə əziyyət çəkib döyüşlərə gedirdin?".

**N.Mehdiyev diqqətə çatdırıb ki, bütün qazilər bizim başımızın tacıdır və onlara hörmətimiz sonsuzdur. Amma bu cür əməllərdən çəkinsələr daha hörmətli olarlar:**

"Qazilər arasında bir qrup belə əməllər törətdikcə digərlərini də gözdən salırlar. Axı belə olmaz. Qoy həmin adamlar gedib bizim yaxşı tanınmış döyüşçülərimizdən ibrət götürsünlər.

İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsində kifayət qədər örnək götürüləsi döyüşçümüz var.

Baxın, indiyə qədər Xüsusi Təyinatlıların bir nəfər qazisi belə bu cür problemlə işıqlandırılmayıb. Çünki onlarda mədəniyyət, əsl hərbçi qanı var. Onlar kimi qoruduqlarını yaxşı bilirlər. Bu gün də gəlib həmin adamların qulluğunda dururlar.

Qoy həmin qazilər yaxşılardan nümunə götürsünlər. Belə hallara rast gəldikcə insan xəcalət çəkir".

**Günəş Mərd**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı muavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in
kompyuter mərkəzində
yığılır, səhifələnir və
"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya
Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti,
"Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı:
2550 Sifariş: 1113



## Adelya Hacıyeva yenə gündəmə gəlib

Kamerunlu futbolçu ilə ailə quran azərbaycanlı ana oldu

**”Keşlə” futbol klubunun keçmiş kamerunlu oyunçusu Anatole Abanq azərbaycanlı xanımı Adelya Hacıyeva yenə gündəmə gəlib.**

Axşam.az xəbər verir ki, cütlük bu dəfə yeni doğulan övladı ilə obyektiv qarşısına keçib. Onların fotolarını fotoqraf Zeynal Məmmədli paylaşıb.

*Qeyd edək ki, Anatole və Adelya ötən ilin iyulunda baş tutan toyları ilə gündəmə gəlmişdi. Futbolçu ötən ilin dekabrında ”Keşlə” ilə yollarını ayırıb. O, hazırda Birləşmiş Ərəb Əmirliyində yaşayır.*

## 4 ayaqlı cücə...

Görənlər heyrət edir



**Türkiyənin Adıyaman bölgəsinin İlıcak kəndində təsərrüfat sahibi olan Mustafa Bayır bu günlərdə əhalinin ”dilinə düşüb”.**

Səbəb Mustafanın toyuqlarından birinin dörd ayaqlı cücə çıxarmasıdır. Bu barədə ”aHaber.com”da məlumat verilir. Bildirilir ki, M.Bayırın təsərrüfatında toyuqlardan biri 14 yumurta üstündə kürt düşüb. 14 yumurtadan 11 cücə çıxıb. 10 cücə hər zamankı kimi adi, biri isə qeyri-adidir - dörd ayağı var. 3 gündür yumurtadan çıxmış cücə görənləri heyrətə salır. Cücənin dörd ayaqla sərbəst yeriməsi də bir tərəfdən görənləri təəccübləndirir. Digər adi cücələr kimi rahat hərəkət edir, həyətdə dolaşır, dənlənir. Cücənin artıq ayaqları quyruq hissədədir. Buna baxmayaraq bu, onu narahat etmir. M.Bayır deyib ki, ilk dəfədir belə bir halla rastlaşır: ”İndiyədək nə qədər heyvanımız, toyuq-cücəmiz olub, belə bir halla ilk dəfədir qarşılaşırıq. 70-80 yaşlı qocalarımızdan soruşdum, onlar da indiyədək belə cücə görmədiklərini dedilər. Amma sağlamdır, yeriyir, dənlənir”. Mütəxəssislərsə canlılarda baş verən bu cür qeyri-adilikləri yumurtalardakı dəyişikliklə izah edirlər. Böyük ehtimalla bir yumurtada mayalanmış iki cücə olub, biri tam inkişaf etməyib, inkişaf etmiş orqan - ayaqlarsa digər mayalanmış cücəyə bitişik inkişaf edib. Dünyada baş verənlərə baxılarsa, bu cür qəribəliklər hələ çox baş verəcək.

**Məlahət**

## Cennifer yuxusuzluqdan əziyyət çəkir

Eniston illərdir yaşadığı problemdən danışdı



**Hollivud ulduzu Cennifer Eniston ”People” jurnalına verdiyi müsahibədə yuxusuzluqdan əziyyət çəkdiyini etiraf edib.**

**Axşam.az xəbər verir ki, aktrisa bu vəziyyətin onun beyin funksiyalarına və yaşamına mənfi təsir göstərdiyini söyləyib.**

**”Düşünürəm ki, bu, mənim 30 yaşım olanda və ya daha əvvəl başlayıb. Gənc olanda yuxusuzluğun təsirlərini görmürsünüz, çünki biz özümüzü yenilməz görürük. Ancaq birdən bunun gününüzə, işinizə, beyninizə və bədən quruluşunuza necə təsir etdiyini anlayırsınız.**

**Yuxuya gedə bilməyəndə daim saatıma baxıram. Nə qədər çox narahat olsam, yatmaq bir o qədər çətinləşir”.**

**Cennifer etiraf edib ki, bəzən bir neçə gecə yuxusuz qaldıqdan sonra yuxuda gəzir:**

**”Bununla mübarizə aparıram. Üç sadə və vacib qaydaya əməl etməsəniz, sağlam ola bilməzsiniz: pəhrizinizə riayət edin, idman edin və yaxşı yatın. Bu üç komponent bir-biri olmadan mümkün deyil”**

## Serial eşqi gerçək oldu?



**Türkiyəli aktrisa Aybüke Pusatla aktyor Furkan Andıçın eşq yaşadığı iddia olunur.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlüyün bir müddətdir gözlərdən uzaq münasibət qurduqları deyilir. Aktyorlar hələlik bu barədə heç bir açıqlama verməyiblər.**

***Qeyd edək ki, cütlük daha öncə ”Her yerde sen” serialında sevgili obrazını canlandırıb.***

## Aylığı 45 min olan evdə yaşayacaqlar



**Yayda nikah masasına əyləşməyə hazırlaşan Türkiyənin məşhur cütlüyü, aktrisa Demet Özdəmirlə müğənni Oğuzhan Koç artıq yeni evlərini kirayələyib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, cütlük evləndikdən sonra Zekeriyaköy səmtində yerləşən aylığı 45 min lirə (təxminən 5 min 229 manat) olan malikanədə yaşayacaq.**

**Hazırda evin təmir işlərinə başlayan sevgililər memardan sauna, idman otağı, hamam dekorasiya etməsini istəyiblər.**





# Uzunqulaq qızcığazın baş dərisini qopardı

Ağır yaralanan 3 yaşlı uşaq əməliyyat olunub



**Gözlənilməz hadisə Türkiyənin Şanlıurfa bölgəsində yaşanıb. ”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, Şanlıurfanın Haliliyə əyalətinə bağlı Halimə məhəlləsində yaşayan Arslan ailəsinin 3 yaşlı uşağı Fatma Arslan həyətlərində uzunqulağa kök yedirmək istəyib.**

Uşaq kökü uzunqulağa uzatdığı məqamda heyvan kök əvəzinə qızın başını dişləri arasına alıb. Uşağın səsinə valideynləri gəlib. Fatmanı dərhal yaxınlıqdakı Harran Universitetinin Tibb Fakültəsi xəstəxanasına çatdırıblar. Xəstəxanada uşağa ilkin yardım göstərilib. Qanaxma dayandırılıb, yaranın üstü sarılıb, daha sonra Qaziantepdəki özəl xəstəxanaya göndərilib. Müayinə zamanı uşağın baş dərisində, üzünün böyük bir hissəsində, göz qapağında ağır zədə müəyyən edilib. Fatma dərhal əməliyyata alınıb. Əməliyyat zamanı 3 yaşlı qızın başındakı, üzündəki yaralara tikiş qoyulub. Qopmuş göz qapağı isə boynundan götürülmüş dəri toxumasıyla örtülüb. Əməliyyatı həyata keçirən plastik və rekonstruktiv cərrah Abdulqadir Calavul DHA müxbirinə deyib ki, Fatma xəstəxanaya ağır durumda gətirilib. Əməliyyat üçün uyğun zaman itirilmiş olsa da, yenə də şükür ki, uğurla başa çatıb: ”Uzunqulaq qızcığazın baş dərisini, göz qapağını, üzünün bir qismini dişləyib. Uşaq xəstəxanaya gətirildiyində hadisənin üzərindən bir gün keçmişdi. Yaraları ağır idi. Əməliyyat etdik, başının saçlı dərisini yerinə tikdik, boynundan dəri götürüb gözünün üstünə tikdik, göz qapağı oldu. Bir neçə gün reanimasiyada nəzarət altında saxladıq. İndi artıq özünə gəlib, gözlərini açıb. Daha sonra 1-2 əməliyyat keçirmək bəlkə yenə lazım oldu. Uşağın atası Ömər Arslan uzunqulağın evin önündə bağlı saxlandığını, ani diqqətsiziliyinin bu cür ağır hadisəyə səbəb olduğunu deyib. İtlə dost ol, çomağı əldən qoyma, məsəli bəllidir, görünür, bundan sonra uzunqulaqla da ehtiyatlı davranmaqda fayda var.

**Məlahət**



# Avropada dəhşət

Uşaqlarda orqan yetməzliyinə səbəb olan hepatit yayılır

**Avropa dövlətlərində Britaniyadan İspaniyada da uşaqlar arasında hepatitin ağır formasına tutulma halları aşkarlanıb.**

Bakupost xəbər verir ki, ÜST bununla bağlı beynəlxalq həyəcan təbili çalır.

Qaraciyər mütəxəssisləri bu xəstəliyin mənbəyi, belə sürətlə baş verməsi və uşaqlarda orqan çatışmazlığına gətirib çıxarmasının səbəblərini hələ anlaya bilmirlər.

Bəzi xəstələrə hətta təcili qaraciyər köçürülməsi də tələb olunub. İspaniyada artıq 5 uşaqda belə qəribə vəziyyət yaranıb.

La Razonun məlumatına görə, xəstələnənlər 2-7 yaş arası uşaqlardır.

Onların koronavirusdan sonra qaraciyərinin sıradan çıxıb-çıxmaması arasında əlaqə də təhlil edilir.

Böyük Britaniyada təkcə mart ayında 70 uşaqda - 2-5 yaş arası qaraciyərlə bağlı qəribə simptomlar görünməyə başlayıb: ürəkbulanma, qusma, mədə-bağırsaq işində pozulma, sarılıq.

Artıq 10 uşağa qaraciyər köçürülməsi barədə qərar verilib.

*ÜST Britaniya nümayəndəliyi virusun belə aqressiv hücumunun mənbəyinmi tapa bilmir.*

## Son 3 ayda ilk...

Çində koronavirusdan ölüm qeydə alındı



**Şanxay hökuməti mart ayında qapanma başlayandan bəri koronavirusdan ölənlər barədə ilk rəsmi açıqlamasını verib.**

Medicina.az xəbər verir ki, lokdaundan bəri Şanxayda koronavirusdan üç nəfər ölüb. Bununla da Çində pandemiyanın başlanmasından bəri ölənlərin ümumi sayı 4641-ə çatıb.

Şəhər səhiyyə komissiyasının açıqlamasında deyilib ki, ölənlər 89-91 yaş arasında və səhhətində yanaşı problemləri olan insanlardır.

Çində ”Omikron” ştammının yayılması ilə əlaqədar 2020-ci ilin birinci yarısından bəri ilk dəfə rekord yoluxmalar qeydə alınır. Bu səbəbdən qapanma ilə yanaşı, ölkənin maliyyə mərkəzinə hərbçilər və minlərlə tibb işçisi göndəriliblər. Sərt qaydalarla əlaqədar Şanxay əhalisi etiraz aksiyaları keçirib.

## Cibdə telefon gəzdirmək kişilərdə sonsuzluq yaradır?



**Tibb elmləri namizədi, rusiyalı uroloq-androloq Sergey Fesenko cibdəki telefonla kişi sonsuzluğu arasında əlaqə haqqında danışıb.**

Mütəxəssis cibdə daşınan cihazın sahibinə zərər verə biləcəyi barədə iddiaları təkzib edib. O qeyd edib ki, müasir texnologiya kişilərdə cinsi qabiliyyətlərə təsir etmir. Fesenko bildirib ki, telefonların təhlükəsi ilə bağlı fikir onların düyməli versiyaları zamanında ortaya çıxıb. Həmin qurğular yüksək intensivlikli radio dalğalar yayıb ki, bu da müvafiq toxumaların zədələnməsinə səbəb olub. Lakin müasir mobil cihazlarda bu çatışmazlıq aradan qaldırılıb.

## Gənclərdə miokard infarktı riski artıb

Kardioloq həkim səbəbləri açıqlayıb



**“Deyirlər ki, guya miokard infarktı daha çox yaşlı insanlarda baş verir. Bu yanlış fikirdir. Müasir dövrümüzdə gənclərdə də miokard infarktının yaranma riski artıb.**

Medicina.az xəbər verir ki, bu barədə həkim-kardioloq Səbinə Babayeva məlumat verib.

Həkim bildirib ki, gənc insanlarda infarkt zamanı ölüm riski daha çox olur. Çünki yaşlı insanlarda körpü damarlar tam formalaşdığından ani infarkt halları zamanı ürək digər damarlardan qan alaraq, qidalanmağa davam edir:

”Gənclərdə isə bu körpü damarlar formalaşmadığı üçün ani infarktın ölümlə nəticələnməsi riski daha çox olur”.

*Qeyd edək ki, icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində ürək-damar xəstəliklərinin müalicə və müayinəsi vətəndaşlara ödənişsiz təqdim edilir.*

## Süni intellekt yaradıcılıqda tətbiqini tapıb



**Tayvanın ”Appier” informasiya texnologiyaları şirkətinin mütəxəssisləri süni intellektə reklam şüarları yaratmağı öyrədiblər.**

Mütəxəssislər marketinq kampaniyaları üçün skriptlərin yazılmasında süni intellektin istifadəsindən danışıblar.

Azərtac xarici saytlara istinadla xəbər verir ki, alimlər süni intellektdən yaradıcılıqda istifadəni tapıblar.

Mütəxəssislər əvvəllər təsdiqlənmiş reklam şüarları əsasında marketinq kampaniyaları yaratmaq üçün xüsusi riyazi model öyrədiblər. Onların təsvir etdiyi neyron şəbəkəsi gündə demək olar ki, 30 milyard sorğunu emal etmək qabiliyyətinə malikdir.